QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 208 (5680) **2 noyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Azərbaycan dünyanın ən çox islahatlar aparan ölkəsidir

*"Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atması uğurlarımızın daha bir göstəricisidir*



Səh 3

**Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul edib**



2

**Prezident İlham Əliyevin adından Süleyman Dəmirəlin məzarı önünə əklil qoyulub**



4

**Şair Mikayıl Müşfiqin qalıqlarının tapılması haqqında KİV-lərdə yayılan materialların araşdırılması ilə bağlı yaradılmış işçi qrupunun ilk iclası keçirilib**



4

**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinin 25 illiyinə həsr olunmuş iclası keçirilib**



6

**İsveç XİN: Krallıq Ermənistana "Saab JAS 39 Grippen" qırıcılarını satın almağı təklif etməyib**



4

**"Qondarma rejim üzdəniraqların ümidinə qalıb"**



12

4

**Paşinyan parlamentin buraxılmasına nail oldu**



9

**Vilayət Vəliyev: "Doing Business-2019" hesabatına əsasən Azərbaycan ən islahatçı 10 ölkə siyahısındadır**



10

**"Paşinyanın Aİ-dən pul dilənməsi Ermənistanın acınacaqlı vəziyyətindən xəbər verir"**



# Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.



## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 7 mart tarixli 2784 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018-2022-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Milli Ensiklopediyasının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında Fərman imzalayıb.

# Sofiyada Azərbaycan-Bolqarıstan Strateji Dialoqunun ilk iclası keçirilib

***Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bolqarıstana rəsmi səfəri çərçivəsində bu ölkənin baş nazirinin müavini və xarici işlər naziri Yekaterina Zaxaryeva ilə görüşüb, həmçinin Azərbaycan-Bolqarıstan Strateji Dialoqunun ilk iclası keçirilib.***

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər Azərbaycan və Bolqarıstan arasında strateji tərəfdaşlıq səviyyəsində olan ikitərəfli əməkdaşlıq münasibətlərinin beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət prinsipinə, eləcə də qarşılıqlı etimad və anlaşmaya əsaslandığını xüsusilə vurğulayıblar.



Nazirlər iki ölkə arasında mövcud olan əməkdaşlığın cari vəziyyətini yüksək qiymətləndiriblər, eyni zamanda, energetika, nəqliyyat, kənd təsərrüfatı, turizm, İKT və ətraf mühit kimi sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı maraq və geniş imkanların mövcud olduğunu ifadə ediblər.

Elmar Məmmədyarov Bolqarıstandan olan həmkarını bu il dekabrın 14-də Bakıda keçiriləcək Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclasına dəvət edib.

İkitərəfli görüşdən sonra hər iki ölkənin nümayəndə heyətləri arasında Azərbaycan və Bolqarıstan Strateji Dialoqunun ilk iclası keçirilib.

İclasda ikitərəfli əməkdaşlıq gündəliyinin bir çox məsələləri, o cümlədən ikitərəfli iqtisadi-ticarət münasibətləri, energetika, nəqliyyat, tranzit layihələrinin həyata keçirilməsi, Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlıq münasibətləri və bu xüsusda münasibətlərin hüquqi əsasını təşkil edəcək yeni Saziş üzrə danışıqların cari vəziyyəti, Azərbaycan və Bolqarıstanın beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığı, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




# CNN telekanalı "Əbədi məşəl: Azərbaycan necə Odlar yurdu oldu?" sərlövhəli reportaj hazırlayıb

***Dünyanın ən nüfuzlu telekanallarından biri olan CNN-in saytında "Əbədi məşəl: Azərbaycan necə Odlar yurdu oldu?" sərlövhəli reportaj yerləşdirilib. AZƏRTAC CNN-ə istinadla xəbər verir ki, telekanal növbəti reportajını Azərbaycanın "vizit kartı" sayılan iki məkana - "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu və "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğuna həsr edib. Reportajda bələdçi Rahilə Əliyevanın sözləri sitat gətirilir: "Bu məşəl dörd min əvvəl alovlanıb və heç vaxt sönməyib. Hətta yağış, qar və külək də onu söndürə bilmir".***

"Dağın yamacının 10 metrlik hissəsində alovlanan məşəl qızmar havanı daha da isti edir", -deyə reportajda qeyd olunur. CNN-in reportajında daha sonra vurğulanır: "Yanardağ Abşeron yarımadasında yerləşir və minilliklər ərzində Azərbaycana səyahət edənlərin marağına səbəb olan bir neçə kortəbii alov mənbələrindən biridir. XIII əsrdə italyan səyyahı Marko Polo bu sirli möcüzədən yazıb. Əcnəbi tacirlər getdikləri ölkələrdə əbədi məşəldən bəhs ediblər. Məhz bu səbəbdən Azərbaycan "Odlar yurdu" adlandırılıb".

R.Əliyevanın sözlərinə görə, Yanardağdakı sönməz alov gecə vaxtı və ya qışda - qar dənəciklərinin yerə düşmədən havada əriməsi fonunda xüsusilə ecazkar görünür.

Qeyd edək ki, unikal təbiət möcüzəsi olan Yanardağ Abşeron yarımadasının görməli məkanlarından biridir. Bakıdan 27 kilometr şimalda, Abşeron yarımadasının Məhəmmədi kəndində yerləşən Yanardağın ətəyindən alov təxminən on metr eninə - ahəngdaşılı təpədən yüksəlir. Alovun dili təpənin ətəyindəki çıxıntının üzərində olan qumların arasındakı məsamələrdən çıxır. Yanardağla bağlı çoxlu əfsanələr mövcuddur. Qədim zamanlarda bu məkana Hindistan və İrandan atəşpərəstlər axın edirdilər. Reportajda Azərbaycanda zərdüştiliyin yaranması tarixindən də qısa bəhs olunur. Qeyd edilir ki, bu iki məkan turizm baxımından əhəmiyyətli və cəlbedicidir.

# Azərbaycan dünyanın ən çox islahatlar aparan ölkəsidir

## *“Doing Business 2019” hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atması uğurlarımızın daha bir göstəricisidir*

***Ölkəmizin davamlı inkişafının təmin olunmasında Azərbaycan Prezidenti İlham Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət, o cümlədən, bu siyasətin prioritet istiqamətlərindən olan iqtisadiyyatın şaxələndirilməsi həlledici rol oynayır. Dövlət başçısı tərəfindən imzalanan dövlət proqramlarının və sərəncamların uğurla icrası böyük nailiyyətlərin əldə olunmasına səbəb olub.***



Bu gün Azərbaycan dünyanın ən müasir və inkişaf etmiş ölkələri sırasındadır. Hətta Azərbaycan siyasi və iqtisadi çəkisinə görə dünyanın ən nəhəng ölkələri ilə müqayisə olunacaq dərəcədə işlər görüb. Hər sahədə qazandığımız uğurların təməlində Prezident İlham Əliyevin qətiyyəti, əzmkarlığı və Ulu Öndərin irsinin layiqincə yaşadılması dayanır. Müasir, modern dövlət olaraq tanınan ölkəmiz, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, getdikcə daha da yenilişir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Şübhəsiz ki, bütün bunlar dünyanın bir sıra nüfuzlu iqtisadi mərkəzləri tərəfindən də rəğbətlə qarşılanır və Azərbaycanın iqtisadi inkişafı yüksək qiymətləndirilir.

Elə Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycanın dünyanın ən çox islahat aparan ölkəsi elan olunması da uğurlarımızın göstəricisidir. “Doing Business 2019” hesabatında deyilir: “Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq, səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin etmişdir”.

Azərbaycanın biznes mühitinin yaxşılaşması nəticəsində, investisiya reytinqinin artması üçün əlverişli mühit mövcuddur. Son illər Azərbaycanda sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılmasının təkmilləşdirilməsi, sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması üçün addımlar atılıb və bürokratik əngəllərə son qoyulub. Sahibkarlığın inkişafına dövlət qayğısının artırılması məqsədilə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı kəskin surətdə azaldılıb, lisenziya müddəti uzadılıb, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarına yol verməyən və bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq edilib. Biznes mühitinin yaxşılaşması, sahibkarlığa daha əlverişli fəaliyyət meydanının yaradılması, onların müdafiəsi ilə bağlı daha təkmil mexanizmləri özündə əks etdirən qaydaların tətbiq olunması investisiya reytinqinin müəyyən edilməsində mühüm rol oynayıb.

### ÖLKƏMİZDƏ APARILAN KOMPLEKS İQTİSADİ İSLAHATLAR “DOİNG BUSİNESS 2019” HESABATININ DA BÜTÜN İNDİKATORLARINI ƏHATƏ EDİB

Qətiyyətlə deyə bilərik ki, iqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın dünyanı bürüyən iqtisadi və maliyyə böhranından uzaq olmasına zəmin yaratdı. Ümumdünya iqtisadi böhranının başlandığı 2008-ci ildən Azərbaycan hökuməti zəruri vasitələrdən və təsir mexanizmlərindən istifadə edərək, düşünülmüş siyasət həyata keçirdi. 2015-ci ildən etibarən dünyada neft qiymətlərinin aşağı düşməsi və dəyişən makroiqtisadi amillər iqtisadi islahatların keyfiyyətcə yeni mərhələyə yüksəlməsini vacib edib. Aparılan iqtisadi islahatlar nəticəsində, ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlət başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə, biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib.

Azərbaycan Respublikası Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks iqtisadi islahatlar “Doing Business 2019” hesabatının da bütün indikatorlarını əhatə edib. Nəticədə, 2017-ci il və 2018-ci ilin ilk 4 ayında təkcə bu hesabat üzrə 30-a yaxın normativ-hüquqi akt qüvvəyə minməklə 70-dən çox islahat tədbiri həyata keçirilib və qeydə alınması üçün “Doing Business” komandasına təqdim olunub. Aparılan islahatlar nəticəsində, vətəndaşların və sahibkarların məmnunluğunun artırılması, bu sahədə şəffaflığın təmin olunması ilə yanaşı, müxtəlif sektorlar üzrə inzibati prosedurların sayının və xərclərin minimuma endirilməsi, dövlət xidmətlərinin göstərilməsində keyfiyyətin daha da yüksəlməsinə nail olunub.

### UĞURLU İQTİSADİ İNKİŞAF STRATEGİYASININ NƏTİCƏSİDİR Kİ, AZƏRBAYCAN MODELİ DÜNYADA TANINIR VƏ QƏBUL EDİLİR

Ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində mühüm işlər görülür. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ərzaq təhlükəsizliyi üzrə tam müstəqilliyə nail olunmasını milli hədəflərdən biri kimi müəyyənləşdirib. “Hazırda qarşıda duran ən başlıca məqsəd daxili imkanlar hesabına kənd təsərrüfatı və ərzaq məhsulları ilə özünütəminata və davamlı inkişafa nail olmaqla, Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaqdır”- deyən ölkə başçısının iradəsi və göstərişləri ilə ardıcıl tədbirlər həyata keçirilir.

Azərbaycan Prezidentinin sərəncamları ilə ölkənin sosial-mədəni və iqtisadi sahələrində olduğu kimi, aqrar sahəsinin inkişafına dair qəbul olunmuş dövlət proqramları, müvafiq qanunvericilik aktları ölkə ərazisində olan torpaq ehtiyatlarında səmərəli şəkildə istifadə üçün geniş imkanlar açıb. Aqrar sektora güzəştli kreditlərin, vergi güzəştlərinin, subsidiyaların verilməsi, aqrolizinq xidmətlərinin göstərilməsi və digər dövlət dəstəyi ilə keçirilən tədbirlər nəticəsində, bir sıra ərzaq məhsullarının istehsalı artmışdır.

Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”, “Azərbaycan Respublikasında yay və qış otlaqlarından səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı” və s. aqrar sahənin inkişafına yeni yollar açıb. Dövlət başçısı Cənab İlham Əliyev tərəfindən kənd təsərrüfatı məhsulları ilə özünütəminat səviyyəsinin yüksəldilməsi, əlavə əkin sahələrinin dövriyyəyə cəlb edilməsi və məhsuldarlığın artırılması, pambıqçılığın, çayçılığın, üzümçülüyün və digər ənənəvi sahələrin inkişafı istiqamətində müvafiq qurumlara bir sıra tapşırıqlar verilib.

### AZƏRBAYCANIN MÖVQEYİ 2017-Cİ İLLƏ MÜQAYİSƏDƏ 32 PİLLƏ İRƏLİLƏYƏRƏK, 190 ÖLKƏ ARASINDA 25-Cİ YERDƏ QƏRARLAŞIB

Göründüyü kimi, Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən islahatlar, öz növbəsində, “Doing Business 2019” hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də, əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək, 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

Hesabata əsasən, ölkəmiz “Tikinti üçün icazələrin alınması” və “Kreditlərin alınması” indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək, ciddi nailiyyət əldə edib. Bunlarla yanaşı, “Kiçik investorların maraqlarının qorunması” indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, “Biznesə başlama” (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunub. Bütövlükdə, “Doing Business 2019” hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınıb. Eyni zamanda, əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılmış islahatlar Dünya Bankının ekspertləri tərəfindən qəbul edilib. Bu uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən, biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

“Doing Buisness” hesabatı xarici investorlar tərəfindən biznes mühitinə dair etibarlı mənbə kimi istinad edilən əsas reytinq göstəricisi olmaqla yanaşı, digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda baza rolunu oynayır. Bu, Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən kompleks islahatlar, xüsusilə, qeyd edilən sahələr üzrə aparılan təkmilləşmə tədbirləri nəticəsində, nail olunmuş növbəti nailiyyətlərdən biridir.

Bu islahatlar dövlətimizin başçısının siyasi iradəsi ilə aparılıb. Azərbaycan MDB məkanında ən sürətlə irəliləyən ölkədir. Ölkəmiz “Doing Business” hesabatında 32 pillə irəliləyib. Qazaxıstan 8, Rusiya 4, Belarus 1, Qırğızıstan 7, Ukrayna 5, Özbəkistan 2, Tacikistan isə 3 pillə geriləyib.

Ölkəmiz 2003-cü ildən yeni inkişaf mərhələsinə qədəm qoyaraq, dövrün çağırışlarının öhdəsindən yüksək səviyyədə gələrək, qazandığı biri-birindən əhəmiyyətli uğurları ilə dünyanın diqqətindədir. Bu gün son illərin uğurlarından bəhs ediriksə, gələcəkdə daha möhtəşəm uğurlardan danışacağıq. Həyat davam edir və bu davamlılıq inkişaf, tərəqqi ilə müşayiət olunanda, daha böyük ruh yüksəkliyi yaradır. Bu uğurlara yol açan əsas amil isə möhkəm təmələ əsaslanan siyasətdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

2 noyabr 2018-ci il

# Şair Mikayıl Müşfiqin qalıqlarının tapılması haqqında KİV-lərdə yayılan materialların araşdırılması ilə bağlı yaradılmış işçi qrupunun ilk iclası keçirilib



Şair Mikayıl Müşfiqin qalıqlarının tapılması haqqında kütləvi informasiya vasitələrində yayılan materialların araşdırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən yaradılmış işçi qrupunun noyabrın 1-də Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin yanında ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə, səhiyyə naziri Oqtay Şirəliyev, mədəniyyət naziri Əbülfəs Qarayev, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev, AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli, AMEA Tarix İnstitutunun direktoru Yaqub Mahmudov, Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulov və Yazıçılar Birliyinin katibi Çingiz Abdullayev iştirak ediblər.

İclasda Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq işçi qrupuna Mikayıl Müşfiqin qalıqlarının aşkar edilməsi ilə bağlı KİV-lərdə gedən məlumatların öyrənilməsi, müvafiq arxiv materiallarının araşdırılması, şairə məxsus olduğu ehtimal edilən qalıqların DNK analizinin keçirilməsi və digər zəruri tədbirlərin görülməsi ilə əlaqədar tapşırıqlar verilib.

İşçi qrupunun gördüyü işlər və əldə edilmiş nəticələr barədə mütəmadi olaraq Azərbaycan Prezidentinə məruzə olunacaq və ölkə ictimaiyyətinə məlumat veriləcək.

# Prezident İlham Əliyevin adından Süleyman Dəmirəlin məzarı önünə əklil qoyulub



***Türkiyənin 9-cu Prezidenti, görkəmli siyasi və dövlət xadimi Süleyman Dəmirəlin anadan olmasının 94-cü ildönümü münasibətilə İsparta şəhərinin İslamköy kəndində anma mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Süleyman Dəmirəlin prezidentliyi dövründə nazir, millət vəkili və digər siyasi vəzifələrdə təmsil olunan şəxslər, həmçinin onun yaxınları və sevənləri iştirak ediblər.***




Mərasim Türkiyənin dövlət himninin səsləndirilməsi ilə başlanıb. Sonra Süleyman Dəmirəlin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Görkəmli dövlət xadiminin məzarı ehtiramla ziyarət olunub. Abidə-məzar kompleksinin önünə Azərbaycan Prezidenti İlham Əliyevin adından əklil qoyulub.

Tədbirdə Süleyman Dəmirəlin 20 il şəxsi həkimi olan, hazırda Türkiyə Böyük Millət Məclisinin üzvü Aylin Cəsur, Azərbaycanın Ankaradakı səfiri Xəzər İbrahim və başqaları çıxış ediblər.

Səfir Xəzər İbrahim Süleyman Dəmirəlin yaxınlarına Azərbaycan Prezidenti İlham Əliyevin adından başsağlığı verib, mərhum dövlət xadiminin Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı üçün göstərdiyi xidmətlərdən, o cümlədən ulu öndər Heydər Əliyevlə olan səmimi dostluq münasibətlərindən danışıb. Səfir diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında Süleyman Dəmirəlin hər zaman Azərbaycanın yaxın dostu olduğunu və onun xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını ifadə edib.

Digər natiqlər də Süleyman Dəmirəl haqqında dəyərli fikirlər söyləyib, onunla bağlı xatirələrini bölüşüblər. Sonra iştirakçılar İslamköydəki Süleyman Dəmirəl muzeyində olublar.

Qeyd edək ki, bu muzeydə Süleyman Dəmirəlin ulu öndər Heydər Əliyevlə birgə fotolarından, Azərbaycanla bağlı ona verilmiş müxtəlif hədiyyələr və mükafatlardan ibarət guşə yaradılıb.

# Baş nazir Novruz Məmmədov Astana şəhərinə yola düşüb



Noyabrın 1-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun rəhbərliyi ilə nümayəndə heyəti Müstəqil Dövlətlər Birliyi (MDB) Hökumət Başçıları Şurasının növbəti iclasında iştirak etmək üçün Qazaxıstanın paytaxtı Astana şəhərinə yola düşüb. AZƏRTAC-a bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

# Azər Əliyev: "Ümidvaram ki, gənc idmançılarımız olimpiadalardakı qələbələri ilə bizi sevindirəcəklər"



Oktyabrın 30-da Azərbaycan Prezidenti İlham Əliyev Argentinanın Buenos-Ayres şəhərində keçirilmiş Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi barədə Sərəncam imzalayıb. Sərəncama görə, birinci yeri tutan hər bir idmançıya 25 min manat, onun məşqçisinə isə 12 min 500 manat; ikinci yeri tutan hər bir idmançıya 15 min manat, onun məşqçisinə isə 7 min 500 manat; üçüncü yeri tutan hər bir idmançıya 10 min manat, onun məşqçisinə isə 5 min manat məbləğində mükafat müəyyən olunur. Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibinin müavini, Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev AZƏRTAC-ın müxbiri ilə söhbətində gənc idmançılarımızın bu Oyunlarda çıxışlarına yekun vuraraq qeyd edib ki, Azərbaycan idmançılarının Yeniyetmələrin Yay Olimpiya Oyunlarında qazandığı 7 medal böyük müvəffəqiyyət sayıla bilər. O deyib: "İdmançılarımızın hamısı layiqincə çıxış edib. Bütövlükdə nəticələrdən çox razıyam. Mən ilk dəfə idi ki, Yeniyetmələrin Olimpiadasına getmişdim. Odur ki, idmanı sevən, ölkəsinin idman şərəfini qoruyan gənclərimizi görəndə sevincimin həddi-hüdudu olmadı. Olduqca xoş hisslərdir. Ümid edirəm ki, müvəffəqiyyətlə çıxış etmiş gənc idmançılarımız, hətta medalsız qalmış gənclərimiz böyüklər arasında dördilliyin əsas oyunlarında da qələbə əzmi nümayiş etdirəcək və ölkəmiz üçün medallar qazanacaqlar.

Bu idmançılar hələ çox gəncdir. Əgər onlar 2020-ci ildə Tokio Olimpiadasında çıxış etməyə macal tapmasalar belə, ümidvaram ki, 2024-cü ildə Paris Olimpiadasında ölkəmizi layiqincə təmsil edəcəklər". Ağır atletlərimizin çıxışlarından danışan A.Əliyev bildirib ki, Azərbaycanın ağır atletika üzrə kişilərdən və qadınlardan ibarət yığmaları Aşqabadda dünya çempionatında çıxış edəcəklər. Bu çempionat 2020-ci ildə Yaponiyada keçiriləcək Olimpiya Oyunları üçün seçmə mərhələdir. A.Əliyev deyib: "Ağır atletimiz Tarmenxan Babayev Buenos-Ayres Oyunlarında gümüş medal qazanıb. Bu da Ağır Atletika Federasiyası üçün çox yaxşı göstəricidir. O, Avropa çempionudur. Odur ki, biz ona böyük ümidlər bəsləyirik. O, Tokio Olimpiadasında da medal qazana bilər. Ümidvarıq ki, Tarmenxan idman ustalığını daim artıracaq, bu cür layiqli nəticələr nümayiş etdirəcək.

Ağır Atletika Federasiyası üçün prioritet vəzifə gənc idmançılar hazırlamaqdır. Biz yeni nəslə ümid bəsləyirik. İdmançılarımız yeniyetmələr arasında Avropa çempionatında bir qızıl və iki gümüş medal qazanıblar. Gənclərimizin çox yaxşı potensialı var. Biz də məhz yeniyetmələrdən ibarət yığmanı inkişaf etdirməyə çalışırıq. Ümidvarıq ki, bu idmançılar artıq Tokio və Paris olimpiadalarında medallar uğrunda mübarizə aparacaqlar".

# İsveç XİN: Krallıq Ermənistana "Saab JAS 39 Grippen" qırıcılarını satın almağı təklif etməyib

Son günlər bəzi xarici KİV-lərdə Ermənistan Müdafiə Nazirliyinə istinadən İsveçin Saab şirkətinin istehsal etdiyi "JAS 39 Grippen" markalı qırıcıların guya Ermənistana satın almağa təklif olunması ilə bağlı xəbər yayılıb.

AZƏRTAC xəbər verir ki, yayılan xəbərlə bağlı Azərbaycanın İsveç Krallığındakı səfirliyi bu ölkənin Xarici İşlər Nazirliyinə müvafiq məsələyə aydınlıq gətirmək üçün sorğu ilə müraciət edib.

İsveç Xarici İşlər Nazirliyinin cavab məktubunda bildirilib ki, yayılan xəbərlər həqiqətə uyğun deyil. Qeyd olunur ki, İsveç hökuməti Ermənistana "Saab JAS 39 Grippen" markalı qırıcıların satın alınmasını təklif etməyib, habelə bu sepkidə işlər aparmayıb.

# Paşinyan parlamentin buraxılmasına nail oldu



Ermənistan parlamenti xüsusi iclasında Nikol Paşinyanı baş nazir postuna seçməkdən növbəti dəfə imtina edib. Bu isə o deməkdir ki, qanunverici orqana növbədənkənar seçkilər keçiriləcək. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, Ermənistan parlamentinin spikeri Ara Babloyanın sözlərinə görə, Nikol Paşinyanın namizədliyi lehinə və əleyhinə heç bir deputat səs verməyib, 13 deputat isə bitərəf qalıb. Beləliklə, Paşinyan parlamentin buraxılmasına nail olub.

Ölkə konstitusiyasına əsasən, parlament buraxıldıqdan sonra prezident seçki gününü təyin edir. Paşinyan müvafiq fərmanı gözləmədən növbədənkənar seçkilərin dekabrın 9-da keçiriləcəyini bildirib. Ermənistanda bu ilin mayında baş vermiş hakimiyyət dəyişikliyindən sonra siyasi anomaliya yaranıb. Miqyaslı küçə aksiyaları səbəbindən parlament Paşinyanı hökumət başçısı seçməyə məcbur olsa da, onun qanunverici orqanda çoxluğu yoxdur. Belə ki, Paşinyanı dəstəkləyən "Elk" fraksiyası cəmi 8 deputatdan ibarətdir. Əvvəlki hakim partiya (Respublika partiyası) 105 parlament mandatının 49-na sahibdir. Siyasi proseslərin gedişi açıq-aydın göstərir ki, Paşinyan ölkədə bütün hakimiyyəti öz monopoliyasına almaq niyyətindədir və hadisələr buna doğru gedir.

# Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinin 25 illiyinə həsr olunmuş iclası keçirilib

***Noyabrın 1-də Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinin 25 illiyinə həsr olunmuş iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin fəsadlarını əks etdirən fotostendlə, eləcə də müxtəlif dillərdə nəşr edilən kitablar, fotoalbomlar, bukletlər və digər əyani vəsaitlərlə tanış olublar.***




İclası giriş sözü ilə açan Dövlət Komissiyasının sədri Mədət Quliyev tədbir iştirakçılarını salamlayaraq, Komissiyanın fəaliyyət göstərdiyi 25 il ərzində görülmüş işlər barədə məlumat verib.

Sədr Mədət Quliyev xüsusi qeyd edib ki, qondarma Dağlıq Qarabağ problemi ulu öndər Heydər Əliyevə O, hələ Dövlət Təhlükəsizliyi Komitəsində xidmət etdiyi vaxtdan məlum idi. Buna görə də münaqişənin qurbanı olan vətəndaşlarımızın taleyinə həm Naxçıvanda, həm də paytaxt Bakıda işlədiyi zaman xüsusi diqqət yetirirdi. Erməni quldurları Qərbi Azərbaycandakı ata-baba yurdlarında və Dağlıq Qarabağda yaşayan azərbaycanlılarla yanaşı, Ermənistanla sərhəddə yerləşən yaşayış məntəqələrinə, Mehri rayonu ərazisindən keçərək Naxçıvana gedən dəmir yolu xəttinə hücumlar edir, insanlarda vahimə yaradır, məqsədli şəkildə onları qətlə yetirir, işgəncələr verir, əsir və girov götürürdülər.



Bir çox vətəndaşımız itkin düşmüş yaxınlarını axtarmaq və düşmənin nəzarətində olan ərazilərdə qalmış şəhidlərimizin cəsədlərini geri qaytarmaq məqsədilə həmin illərdə Naxçıvan Muxtar Respublikası parlamentinin deputatı və Ali Məclisinin sədri olduğu dövrlərdə ümummilli lider Heydər Əliyevin onlara göstərdiyi köməyi minnətdarlıqla xatırlayır. Dövlət Komissiyasının rəsmi sənədlərində də əksini tapmış ifadələrə əsasən, Ulu Öndər nə qədər çətin olsa da, onlara kömək göstərmək, üzləşdikləri humanitar problemə yardım etmək və öz nüfuzu sayəsində onlarla vətəndaşımızın əsir-girovluqdan azad olunmasına, şəhidlərimizin cəsədlərinin alınmasına nail olmuşdu. Dahi rəhbərin bu fəaliyyəti hər bir azərbaycanlı üçün böyük humanizm nümunəsidir.

Sədr Mədət Quliyev bildirib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da bu məsələ Ümummilli Liderin xüsusi diqqət ayırdığı prioritet sahə olub. Ulu Öndər Heydər Əliyevin 1993-cü il avqustun 30-dan sentyabrın 1-dək İsveçrənin Cenevrə şəhərində keçirilmiş "Müharibə qurbanlarının müdafiəsi üzrə" beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciəti bunun bariz nümunəsidir: "Bütün dünyaya məlumdur ki, Azərbaycan Respublikası Ermənistan Respublikası tərəfindən təcavüzə məruz qalmışdır. Problem heç də yalnız onda deyil ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi və ərazi bütövlüyü ciddi təhlükə altına düşmüşdür. Bizim yüz minlərlə dinc vətəndaşımız doğma Vətənindən qaçqın olmuş, minlərlə adam bu gün də ermənilərin əlində girov kimi saxlanmaqdadır. Biz ilk gündən Ermənistanın Azərbaycana qarşı apardığı ədalətsiz müharibəni pisləyirik. Biz bu müharibənin doğurduğu zülm və dəhşətləri lənətləyirik. Uşaqların çəkdiyi əzab, anaların göz yaşları, minlərlə adamın şikəst olmuş taleyi bizi çox kədərləndirir. Lakin təəssüflər olsun ki, hələ də qan tökülür və insanların çəkdiyi əziyyətlərin sonu görünmür".

Bu müraciət Ermənistan tərəfindən humanitar hüquq normalarının pozulması faktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması barədə ilk rəsmi sənəd nümunəsidir. Törədilmiş müharibə cinayətlərinin cəzasız qalması Ulu Öndəri daim düşündürür və narahat edirdi. Buna görə də Ümummilli Lider 2001-ci il martın 1-də imzaladığı Sərəncamında Dövlət Komissiyasının qarşısında "Ermənistan tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı və etnik təmizləmə siyasətini əks etdirən hüquqi-tarixi sənədlərin, əsir və itkin düşmüş, girov götürülmüş şəxslərlə bağlı materialların dünya ictimaiyyətinə çatdırılması üçün ardıcıl və məqsədyönlü" işin aparılması kimi zəruri vəzifə qoymuşdu.

Sərəncamdan sonra Komissiyada toplanmış çoxsaylı məlumat və materialların əsasında müxtəlif dillərdə kitablar tərtib edilib, filmlər çəkilərək beynəlxalq aləmdə yayılıb. Eyni zamanda, törədilmiş cinayət əməllərinin prosessual qaydada araşdırılması üçün Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti və Respublika Baş Prokurorluğunun əməkdaşlarından ibarət olan birgə istintaq-əməliyyat qrupu fəaliyyət göstərir.

Dövlət Komissiyasının sədri vurğulayıb ki, 2003-cü ildən sonra da ulu öndər Heydər Əliyevin siyasi xətti Azərbaycanda uğurla davam etdirildi. Müharibə qurbanları məsələsi bu kursun layiqli davamçısı Prezident İlham Əliyevin xüsusi diqqət ayırdığı sahələrdən biridir. Hər birimiz şəhid qəhrəmanlarımız Mübariz İbrahimovun, Fərid Əhmədovun, Çingiz Qurbanovun, o cümlədən Aprel şəhidlərinin düşmənin nəzarətində olan ərazilərdə qalmış cəsədlərinin alınaraq Vətən torpağına tapşırılması işində Prezidentin şəxsi səylərini, dəfn mərasimlərində iştirakını, ailələrlə görüşlərini və söylədiyi fikirləri yaxşı xatırlayırıq.

Təsadüfi deyil ki, builki seçkilərdə xalqın mütləq əksəriyyətinin səsini qazanmış Prezident İlham Əliyevin imzaladığı ilk rəsmi sənəd müharibə qurbanları ilə bağlı 2018-ci il 19 aprel tarixli Fərman olub. Fərmana əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə veriləcək. Bu Fərman həmin kateqoriyadan olan insanlara və onların ailələrinə Prezidentin göstərdiyi qayğının bariz nümunəsi olmaqla yanaşı, gənclərdə hərbi vətənpərvərlik tərbiyəsinin formalaşmasına da çox ciddi təsir edən normativ hüquqi sənəddir.

"Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində uzun müddət keçməsinə baxmayaraq, münaqişənin həlli uzanır. Bu illər ərzində beynəlxalq təşkilatlar, xüsusən də Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə əməkdaşlıq nəticəsində 1480 nəfər əsir-girovluqdan azad edilsə də, 871 vətəndaşımızın hələ də Ermənistanda əsir-girovluqda saxlanması və beynəlxalq təşkilatlardan gizlədilərək qapalı məkanlarda, zərərli istehsal sahələrində işlədilməsi barədə məlumatlar mövcuddur. Daxil olan məlumatlara əsasən, ermənilər hətta əsir-girovlara Azərbaycan Respublikasını tamamilə işğal etdikləri və belə bir dövlətin artıq mövcud olmadığı barədə fikirlər təlqin edir, onlara psixoloji təzyiqlər göstərirlər. Əlbəttə ki, Azərbaycan həm qeyd etdiyim şəxslərin, həm də hazırda işğal edilmiş Dağlıq Qarabağda saxlanılan Dilqəm Əsgərov, Şahbaz Quliyev və Elnur Hüseynzadənin azad olunması üçün zəruri tədbirləri davam etdirir. Bu insanların azad edilməsi daim Prezident İlham Əliyevin diqqət mərkəzindədir və keçirdiyi müvafiq görüş və müzakirələrdə dövlətimizin başçısı bu məsələni müntəzəm olaraq beynəlxalq qurumlara çatdırır.

Dövlət Komissiyası hazırda əsir-girovluqda saxlanılan və BQXK-nın qeydiyyatında olan şəxslərin "hamının-hamıya" prinsipi ilə azad edilməsi və bundan sonra saxlanılacaq şəxslərin qısa müddət ərzində tərəflərə təhvil verilməsi təklifini irəli sürsə də, Ermənistan bu humanist təklifə münasibət bildirməyib, müharibə qurbanlarının taleyinə biganə qalaraq heç bir əməli addım atmayıb. Buna səbəb Ermənistanın münaqişənin əvvəlindən humanitar məsələni siyasiləşdirmək və Dağlıq Qarabağdakı separatçı rejimi tərəf kimi təqdim etmək cəhdləridir", - deyə Dövlət Komissiyasının sədri Mədət Quliyev bildirib.

Qeyd olunub ki, Dövlət Komissiyası fəaliyyət göstərdiyi 25 il ərzində beynəlxalq humanitar hüquq normalarına hörmətlə yanaşıb, bu sahədə böyük iş təcrübəsi olan BQXK, BMT, ATƏT, Beynəlxalq İşçi qrupu və digər aidiyyəti qurumlarla əməkdaşlıq çərçivəsində işləyib, yaranmış ağır humanitar problemin həllində onların imkanlarından istifadə edib. Dövlət Komissiyası üçün faydalı olan bu əməkdaşlıq bundan sonra da səmərəli şəkildə davam etdiriləcək. Komissiya sədri Mədət Quliyev bu illər ərzindəki faydalı əməkdaşlığa görə BQXK-nın Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sesseraya və onun simasında bütövlükdə bu quruma dövlətimizin başçısının təşəkkürünü çatdırıb.

Ardı Səh. 6

# Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinin 25 illiyinə həsr olunmuş iclası keçirilib

Əvvəli Səh. 5

Dövlət Komissiyasının katibi, İşçi qrupunun rəhbəri İsmayıl Axundov çıxış edərək bildirib ki, əsir-girov və itkinlərlə bağlı problemin aradan qaldırılması məqsədilə 1993-cü ildə yaradılmış Komissiya Azərbaycanın qoşulduğu beynəlxalq humanitar hüquq normaları, BQXK və digər aidiyyəti beynəlxalq qurumlarla əməkdaşlıq çərçivəsində işləyir. 1993-cü ildə başlıca vəzifə kimi, dövlət və qeyri-hökumət təşkilatlarında olan məlumatlar toplanıb və 4 min nəfərlə bağlı ilkin siyahı tərtib edilib, müvafiq saxlanma yeri ayrılıb. Əsir-girovların azad edilməsi və itkinlərin axtarışı prosesi mərkəzləşmiş şəkildə həyata keçirilib, BQXK və digər aidiyyəti beynəlxalq təşkilatlarla birgə görülən işlər nəticəsində 1480 nəfər əsir-girovluqdan azad edilib, onlarla bağlı zəruri reabilitasiya işləri aparılıb.

Ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənliklə Komissiyanın qarşısında Ermənistan hərbçiləri və terrorçu-quldur dəstələri tərəfindən xalqımıza qarşı törədilmiş cinayət əməllərinin araşdırılması və beynəlxalq ictimaiyyətin məlumatlandırılması kimi mühüm vəzifə müəyyən etdiyini bildirən İ.Axundov qarşıya qoyulmuş tələblərin icrası ilə bağlı azad edilmiş vətəndaşlarımızın videoifadələrinin alınaraq arxivləşdirildiyini, ermənilər tərəfindən törədilmiş cinayət əməllərinin prosessual qaydada araşdırılması məqsədilə "Dağlıq Qarabağın silahlı separatçı qüvvələri və Ermənistanın hərbi birləşmələri tərəfindən törədilmiş cinayət hadisələrinin istintaqı ilə əlaqədar birgə istintaq-əməliyyat qrupu"nun yaradıldığını, hazırda bu qrupun Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda fəaliyyətini davam etdirdiyini diqqətə çatdırıb.

İ.Axundov Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 30 oktyabr tarixli Sərəncamı ilə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi üzrə həyata keçirilmiş islahatlardan sonra bu sahədə vəziyyəti təhlil edərək ölkə rəhbəri tərəfindən müəyyən edilmiş vəzifələrin icrasını sürətləndirmək, işə sistemli yanaşmaq və prioritetlərin müəyyən olunması üçün İşçi qrupunun qarşısında bir sıra ciddi tələblər qoyulduğunu vurğulayıb. Qeyd olunub ki, ilkin vəzifə olaraq itkin düşmüş şəxslərə aid siyahı dəqiqləşdirilib və hazırda Dövlət Komissiyasında 3888 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlara aid fotoşəkillər toplanıb və yenilənmiş bazalara əlavə edilib, fotoşəkilləri olmayan itkinlərin fotorobotlarının hazırlanması üçün zəruri tədbirlər görülüb, axtarış-araşdırma, ekshumasiya və identifikasiya sahəsində beynəlxalq təcrübə öyrənilib. Həmçinin BQXK ilə imzalanmış çərçivə sazişinə uyğun olaraq itkin düşmüş şəxslərin yaxın qohumlarından toplanmış bioloji nümunələrin DNT formulalarının çıxarılması






üçün Daxili İşlər Nazirliyi ilə məsləhətləşmələr aparılıb, intensiv hərbi əməliyyatlar dövründə həlak olaraq ölkə ərazisində tanınmadan dəfn edilmiş 195 naməlum məzarın yeri müəyyənləşdirilərək GPS koordinatları çıxarılıb, dövlətimizin başçısının tapşırığı ilə əsir-girovluqdan azad edilmiş şəxslərin ifadələri əsasında Azərbaycan və ingilis dillərində kitab nəşr edilib və digər tapşırıqlar icra olunub.

"Respublika Xatirə Kitabı" redaksiyasının baş redaktoru Nəzakət Məmmədova Ümummilli Lider tərəfindən yaradılmış Xatirə kitabının itkin düşmüş şəxslərə həsr edilmiş xüsusi buraxılışının Dövlət Komissiyasının İşçi qrupunun yaxından köməyi ilə birinci cildinin nəşr olunduğunu diqqətə çatdırıb. Növbəti cildlərin üzərində işin davam etdirildiyini bildirən baş redaktor göstərilmiş dəstəyə və köməyə görə Komissiya sədrinə təşəkkürünü ifadə edib.

BQXK-nın Azərbaycandakı nümayəndəliyinin başçısı Elena Aymone Sessera təmsil etdiyi qurumun Azərbaycanda fəaliyyətə başladığı vaxtdan etibarən münaqişə qurbanları ilə bağlı Komissiya və digər aidiyyəti dövlət qurumları ilə qarşılıqlı anlaşma əsasında əməkdaşlıq etdiyini deyib. O, saxlanma yerlərində əsir-girovlara baş çəkildiyini, "Qızıl Xaç məktubları"nın ailələrə və saxlanılan şəxslərə çatdırıldığını, həlak olmuş şəxslərin cəsədlərinin qarşılıqlı repatriasiyasına vasitəçilik edildiyini, hazırda isə "Ante Mortem", "Post Mortem" proqramları çərçivəsində təxirəsalınmaz işlərin aparıldığını bildirib.

Dövlət Komissiyasının üzvü, Azərbaycan Respublikası baş prokurorunun müavini-hərbi prokuror Xanlar Vəliyev rəhbərlik etdiyi istintaq əməliyyat qrupunun fəaliyyəti barədə məlumat verib. O, tanınmadan dəfn edilmiş məzar yerlərində aparılacaq ekshumasiya və identifikasiya işlərinin prosessual tələblərə uyğun şəkildə təşkili üçün Hərbi Prokurorluq tərəfindən zəruri köməyin göstəriləcəyini bildirib.

Məruzə ətrafında çıxış edən Dövlət Komissiyasının üzvü, Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Oruc Zalov Daxili İşlər Nazirliyinin itkinlərlə bağlı axtarış-araşdırma və siyahıların dəqiqləşməsi prosesində, fotorobotların hazırlanması, atəşkəsin pozulması nəticəsində şəhid olmuş soydaşlarımızın cəsədlərinin ailə üzvlərinə çatdırılması işlərində yaxından iştirak etdiyini, itkin ailələrindən toplanmış bioloji nümunələrin DNT formulalarının çıxarılmasına kömək göstərməyə hazır olduğunu deyib.

Dövlət Komissiyasının üzvü, Milli Məclisin sədr müavini Bahar Muradova bildirib ki, Ermənistan beynəlxalq səviyyədə üzərinə götürdüyü öhdəliklərə və dövlətlərarası qaydalara etinasızlıq göstərir. Ermənistanın törətdikləri təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə bəşəriyyətə qarşı cinayətdir. Bahar Muradova qeyd edib ki, Azərbaycan Ermənistanın təcavüzkar, vandal üzünü ardıcıl, məqsədyönlü şəkildə dünya ictimaiyyətinə çatdırır. Dövlət Komissiyasının son 25 ildə gördüyü işlər bu kontekstdə dəyərləndirilməlidir.

Sonra məruzələr ətrafında müzakirələr olub, Komissiya üzvlərinin fikir, təklif və tövsiyələri dinlənilib.

Müzakirələrdə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, akademik, Milli Məclisin deputatı İsa Həbibbəyli, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, deputat Azay Quliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, "Azərbaycan" qəzetinin baş redaktoru, deputat Bəxtiyar Sadıqov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, deputat Novruz Aslanov və başqaları çıxış edərək mürəkkəb və mühüm bir missiyanı həyata keçirən bu qurumun 25 illik fəaliyyətindən danışıblar.

İclasa yekun vuran Komissiyanın sədri Mədət Quliyev qeyd edib ki, əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla bağlı problem Azərbaycan dövlətini, ictimaiyyəti narahat edən və həllini gözləyən vacib məsələdir. Ona görə də həm Komissiya üzvləri, həm də İşçi qrupu öz məsuliyyətini dərindən dərk etməli, işini Prezident İlham Əliyevin tələbləri səviyyəsində qurmalıdır.

Qeyd edilib ki, Ermənistan ordusu tərəfindən həyata keçirilən təxribatlar və atəşkəs rejiminin intensiv pozulması halları narahatlıq yaradan əsas amildir. Təəssüf ki, belə əməllər insan itkisi ilə nəticələnir və müharibə qurbanlarının sayı artır. İşğal faktının mövcudluğu, Ermənistanın problemin həllində qeyri-konstruktiv mövqeyi sülh variantını hələ də sual altında qoyur. Bu baxımdan Komissiya hər bir situasiyaya hazır olmalıdır.

Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması barədə göstərişləri üzrə fəaliyyətin daha səmərəli və məqsədyönlü şəkildə həyata keçirilməsi üçün səylərin və əlaqələndirmə işinin gücləndirilməsinin vacibliyini qeyd edən sədr Mədət Quliyev Komissiyanın İşçi qrupu tərəfindən üzə çıxarılan həqiqətlərin, ölkəmizlə bağlı məlumatların beynəlxalq aləmdə yayılmasında müvafiq qurumların imkanlarından sistemli şəkildə istifadə olunmasının əhəmiyyətini vurğulayıb. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Mədət Quliyev Prezident İlham Əliyevin qurumun üzvlərinə göstərdiyi etimadı bundan sonra da doğruldacaqlarını, Dövlət Komissiyasının qarşısında qoyulan vəzifələrin icrası üçün daha səylə çalışacaqlarını bildirib.

# Azərbaycanın media nümayəndələri Truskavets şəhərinin meri ilə görüşüblər



***“SƏS” Media Qrupun baş redaktoru Bəhruz Quliyevin rəhbərliyi ilə Azərbaycanın bir qrup media nümayəndələri və turizm sahəsində çalışan menecerlər Ukraynaya səfərləri çərçivəsində dünən Truskavets şəhərinin meri Andri Kulçinski ilə görüşüblər. SİA-nın verdiyi məlumata görə, mer A.Kulçinski qonaqlara şəhərin sanatoriya-istirahət kompleksləri, xüsusilə də “Karpat dağları” sanatoriya-istirahət komplekinin turizm potensialı və imkanları barədə məlumat verib.***



A.Kulçinski Truskavets şəhərindəki turistlərin sayının artması istiqamətindəki müsbət tendensiyaları qeyd edib. Bununla əlaqədar olaraq, o, Ukraynada və xüsusilə də, Truskavetsdə digər dövlətlərin vətəndaşlarının yaşamasının maksimum təhlükəsizliyinin təmin edilməsinə Ukrayna tərəfinin xüsusi diqqət ayırdığını bildirib.

Qeyd olunub ki, şəhərin təhlükəsizliyi polis və küçə müşahidə kameraları vasitəsilə təmin edilir. Bundan əlavə pansionat və sanatoriyaların özlərində də təhlükəsizliyə böyük diqqət ayrılır. Mer qeyd edib ki, azərbaycanlı turistlər şəhərin xarici qonaqları arasında birinci yeri tutur. Onun sözlərinə görə, buna həm də Bakı və Kiyev, eləcə də, Lvov arasında olan mütəmadi avia reyslər təsir edir. Bundan əlavə Azərbaycandan olan turistlərin normal şəraitdə və rahat yaşaması üçün Truskavetsdə Azərbaycan mətbəxinin yer aldığı bir neçə restoran fəaliyyət göstərir, bəzi otellərdə Azərbaycana məxsus elementlərdən istifadə olunur. Bundan başqa, mer Azərbaycandan Truskavetsə investisiya yatırımının artırılması kimi müsbət tendensiyanı qeyd edib.

“SƏS” Media Qrupun rəhbəri Bəhruz Quliyev isə səmimi qəbula görə, Truskavets şəhərinin merinə dərin təşəkkürünü bildirib və Azərbaycan-Ukrayna mediaları arasındakı əlaqələrdən danışıb. Qurum rəhbəri davamlı və səmərəli əməkdaşlığa ümid bəslədiyini bildirib. Azərbaycandan, dövlətimizin qısa müddətdə qazandığı uğurlardan söz açan B.Quliyev Azərbaycanda mətbuat azadlığının yüksək səviyyədə olduğunu və qanunvericilik səviyyəsində təmin edildiyini diqqətə çatdırıb.

Daha sonra görüş çərçivəsində gələcək əməkdaşlıq məsələləri müzakirə olunub. Qeyd edək ki, 5 günlük səfər çərçivəsində nümayəndə heyəti Ukraynanın Livov şəhərində təşkil olunacaq Foruma qatılacaqlar, həmçinin Livov vilayətinin qubernatoru ilə görüşəcəklər.





# Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının idarə heyətinin geniş iclası keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının idarə heyətinin geniş iclası keçirilib. İclasda çıxış edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev gündəlikdə duran məsələlər haqqında geniş məlumat verib. Ş.Hacıyev sonuncu iclasdan ötən dövrdə görülən işlər, ölkəmizin ictimai-siyasi həyatında baş verən hadisələr və yeniliklər barədə danışaraq, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin ölkəmizdə geniş qeyd olunduğunu, Azərbaycan Ordusunun və Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə Bakıda möhtəşəm hərbi paradların keçirildiyini xatırladıb: “Ötən ay partiyamızın Lideri, Prezident İlham Əliyevin ölkəmizdə bu ali dövləti vəzifəyə seçilməsinin 15 illik dövrdə Azərbaycan bir neçə onillik ərzində qazanıla biləcək uğurlara nail olub. Təkcə onu demək kifayətdir ki, Prezident İlham Əliyevin hakimiyyəti dövründə ölkə iqtisadiyyatı 3,2 dəfə artıb, strateji valyuta ehtiyatları 45 milyard dollara çatıb və Azərbaycan regionda lider dövlətə çevrilib. Bu gün Azərbaycanda yaradılan güclü iqtisadiyyat, xalq-iqtidar birliyi və Prezidentin şəxsi nüfuzu dövlətimizin başçısına tam müstəqil və uğurlu siyasət yürütməyə imkan verir”.

Ş.Hacıyev onu da bildirib ki, Prezident İlham Əliyevin liderliyi ilə ölkəmiz nəhəng transmilli layihələrin həyata keçirilməsinə nail olub: “Bu layihələr Azərbaycan ilə yanaşı, regionda da əməkdaşlığın inkişafına və əhalinin rifahının yaxşılaşdırılmasına mühüm töhfələr verir”. Azərbaycanın sürətli inkişafı istiqamətində həyata keçirilən tədbirlərdə YAP-ın da mühüm rol oynadığını vurğulayan Ş.Hacıyev, bu baxımdan, partiyanın Səbail rayon təşkilatının da fəallığı ilə seçildiyini bildirib.

Ş.Hacıyev, həmçinin, YAP Səbail rayon təşkilatı tərəfindən il ərzində, o cümlədən, sonuncu iclasdan ötən müddətdə həyata keçirilən tədbirlər və görülən işlər barədə də ətraflı məlumat verib. Təşkilatın sədri son dövrdə partiya sıralarına qəbul olunan üzvlər arasında gənclərin və qadınların sayının artdığını məmnunluqla vurğulayıb. Bildirib ki, təşkilatın sıralarına yeni qəbul olunan üzvlərin 64 faizini gənclər, 48 faizini isə qadınlar təşkil edirlər.

Sonda gündəlikdə duran digər məsələlər müzakirə olunub, qarşıda duran vəzifələr barədə fikir mübadiləsi aparılıb.

***Rəfiqə HÜSEYNOVA***

# Şeyxülislam Allahşükür Paşazadə İspaniyada beynəlxalq konfransda iştirak edəcək

***Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə noyabrın 3-də İspaniya Krallığına səfərə yola düşür. QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfərdə məqsəd Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi, İspaniyanın Ədliyyə Nazirliyi və Evsen Fondunun birgə təşkilatçılığı ilə “Dinlərarası dialoqun sülhə və qarşılıqlı anlaşmaya töhfəsi” mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etməkdir.***



Konfransda Azərbaycanı hökumət üzvləri, parlament deputatları, tanınmış elm və din xadimləri, habelə Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein, Dağ yəhudiləri icmasının başçısı Milix Yevdayev və Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete təmsil edəcəklər.

İspaniya Krallığı Ədliyyə Nazirliyinin təşkilati dəstəyi ilə baş tutan bu beynəlxalq tədbirdə İspaniyanın yüksək səviyyəli dövlət, hökumət nümayəndələri və din xadimləri, o cümlədən Madrid Arxiyepiskopu Karlos Siyerra iştirak edəcək. İki gün davam edəcək konfransda 40-dək çıxış və məruzə dinləniləcək. Ümumilikdə 1000-ə yaxın nümayəndənin iştirak edəcəyi konfrans yekun sənədin qəbulu ilə başa çatacaq. Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinin İspaniya hökumətinin üzvləri, ölkənin tanınmış ictimai-siyasi xadimləri ilə görüşləri də nəzərdə tutulur.

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

***Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il noyabrın 1-dək 94.727.254,86 manat, 213 min 577,88 ABŞ dolları, 13 min 36 avro və 5 min rubl vəsait yığılıb. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.***



Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

## Bəhruz Quliyev: “”Doing Business” hesabatında Azərbaycanın yüksələn reytinqi yürüdülən iqtisadi islahatlar siyasətin məntiqi nəticəsidir”



“Dünya Bank”ı tərəfindən hazırlanan “Doing Business 2018” hesabatında Azərbaycanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlərinin yüksək şəkildə qiymətləndirilməsi bir daha belə deməyə əsas verir ki, öz reytinq və nüfuzuna görə ölkəmiz bir sıra aparıcı dövlətləri geridə qoyur və bununla öz iqtisadi qüdrətini sübut edir”. SİA xəbər verir ki, bu fikirləri trend-ə açıqlamasında ekspert, “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev deyib.

Onun sözlərinə görə, Azərbaycanın mövqeyinin dünyanın ən mötəbər reytinqlərdə irəliləməsi bilavasitə Prezident İlham Əliyev tərəfindən aparılan kompleks iqtisadi islahatlar siyasətinə beynəlxalq ictimaiyyət tərəfindən verilən yüksək qiymətdir: “Son illərdə sahibkarlığın inkişaf etdirilməsi sahəsində dövlətimizin həyata keçirdiyi islahatlar nəticəsində ölkəmizdə biznes mühitinin təkmilləşdirilməsi, biznesin təşkil edilməsi üçün sərf olunan xərclərin azaldılması və vaxt tutumlu müxtəlif qeydiyyat prosedurlarının sadələşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilib. Məhz bu baxımdan, beynəlxalq aləmdə biznes mühitinin rahatlığı göstəricilərini özündə əks etdirən hesabatlardan sayılan “Doing Business” reytinq hesabatı ölkəmizdə əldə edilmiş nailiyyətləri növbəti dəfə təsdiq edir”.

Bəhruz Quliyev bu hesabatın hər il verildiyini və Azərbaycanın reytinqdə davamlı şəkildə irəlilədiyini xatırladaraq onu da bildirib ki, ümumiyyətlə, son illər ərzində biznes mühitinin təkmilləşdirilməsi sahəsində mövcud qanunvericiliyini daha da yaxşılaşdıran ölkəmiz bu hesabatda ən çox islahat aparan ölkələr sırasına daxil olub və bu ön yerləri tutub.

“SƏS” qəzetinin baş redaktoru digər mühüm amillərə də toxunub: “Burada başqa mühüm və uğurlu nəticələrə hesablanan faktorlar var. Misal üçün, vergilərin ödənilməsi və bəyannamələrin təqdim edilməsi sahəsində vergi sistemində tətbiq edilən yeniliklər əvvəlki illərin reytinq cədvəllərində öz əksini tapıb və bu indikator üzrə ölkəmizin xeyli irəliləməsinə səbəb olub. Həmçinin, ölkədə sosial müdafiə ayırmaları üzrə hesabatların və ödənişlərin elektron formada aparılması sahəsində əldə edilmiş nailiyyətlər də nəzərə alınır ki, bu da Azərbaycanda sosial siyasətin də əsas siyasətin tərkib hissəsi olduğunu isbatlayır.

Xüsusilə, ASAN XİDMƏT mərkəzlərinin yaradılması və biznes mühitinə göstərilən xidmətlərin bu mərkəzlər vasitəsilə aparılması sahəsində dövlətimizin yürütdüyü uğurlu və məntiqli iqtisadi siyasət “Doing Business” hesabatının bütün indikatorları üzrə stabil yüksəlişə nail olmaq üçün çox önəmli və uğurlara söykənən zəmin yaradır”.

## QDİƏT Xarici İşlər Nazirləri Şurasının növbəti iclası dekabrın 14-də Bakıda keçiriləcək

Dekabrın 14-də Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçiriləcək. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Sofiyada keçirilən Azərbaycan-Bolqarıstan Strateji Dialoqunun ilk iclasında məlumat verib.

Xatırladaq ki, Azərbaycan QDİƏT-ə sədrliyi bu ilin iyun ayında qəbul edib. Nazir Elmar Məmmədyarov bildirib ki, təşkilata sədrlik dövründə prioritet regionda nəqliyyat qovşağının inkişafı olacaq. Onun sözlərinə görə, Azərbaycan bu müddətdə turizm, kənd təsərrüfatı, rabitə kimi sahələrin inkişafına da xüsusi diqqət yetirəcək.

# Dünyanın 10 ölkəsindən biri olan AZƏRBAYCAN




***Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin son 15 ildə güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks iqtisadi islahatlar beynəlxalq reytinqlərdə də özünü göstərməkdədir. Xüsusilə də, 2015-ci ilin sonlarından başlayaraq dünyada maliyyə böhranının baş verməsinə baxmayaraq, Azərbaycanda sosial-iqtisadi uğurlara nail olunub. Belə ki, bu müddət ərzində, Azərbaycanda sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılıb, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş əldə edilib. Məhz bunun nəticəsidir ki, Dünya Bankı tərəfindən hazırlanan “Doing Business - 2019” reytinq cədvəlində Azərbaycan 32 pillə irəliləyərək, 190 ölkə arasında 57-ci yerdən 25-ə yüksəlib. Bəs Azərbaycanın bu uğuru haqqında ekspertlər nə düşünür?***

### “Növbəti illərdə bu göstərici daha da yüksək olacaq”



Milli Məclisin deputatı Aydın Mirzəzadə söyləyib ki, Dünya Bankının məşhur “Doing Business 2019” hesabatında ölkəmizin yüksək qiymətləndirilməsi, Azərbaycanda aparılan ardıcıl islahatların nəticəsidir: “Prezident İlham Əliyevin Azərbaycanın daha güclü etmək, iqtisadiyyatımızı günün tələblərinə cavab verən səviyyəyə qaldırmaq üçün atdığı addımlar öz nəticəsini verir. Bu gün Dünya Bankının hesabatında Azərbaycanın bütün sahələr üzrə islahatlar aparan ölkələr arasında 25-ci yer tutması yüksək göstəricidir. Mən deyərdim ki, əgər Azərbaycanın torpaqları işğal edilməsə idi və ölkəmizin 1 milyondan çox qaçqın və məcburi köçkünü olmasa idi, göstəricilərimiz daha yaxşı ola bilərdi. Amma bununla belə, hər bir sahədə islahatların aparılması, onların konkret nəticələr verməsi, beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Hesab edirəm ki, növbəti illərdə bu göstərici daha da yüksək olacaq”.

### “Biznes mühitinin inkişafı əhalinin rifah halının daha da yaxşılaşmasına imkan yaradacaq”



Milli Məclisin deputatı Tahir Mirkişili vurğulayıb ki, “Doing Business 2018” hesabatında 57-ci yerdə qərarlaşan Azərbaycan “Doing Business 2019” hesabatında 32 pillə irəliləyərək, 25-ci yerdə qərarlaşıb: “Azərbaycan hesabat indikatorları üzrə göstəricilərini ən çox yaxşılaşdıran dünyanın 10 ölkəsindən biri olub. Hesabatda göstəricilərini ən çox yaxşılaşdıran 10 ölkə biznesə başlama, kredit əldə etmək və vergi ödəmək sahələrində 62 islahat həyata keçiriblər. Azərbaycan hesabatın 10 indikatorundan 8-ində islahatlar həyata keçirərək öz mövqelərini yaxşılaşdırıb və islahatların sayına görə, dünyada 1-ci olub. Bakı Şəhəri İcra Hakimiyyətində tikintiyə icazələrin “bir pəncərə” prinsipi ilə verilməsi, elektrik şəbəkəsinə qoşulmaları azaldan “ASAN Kommunal” mərkəzlərini açılması, yeni kredit bürosunun yaradılması kimi tədbirlər ölkəmizin hesabatda mövqelərini xeyli yaxşılaşdırıb. Dünya Bankının dərc etdiyi “Doing Business 2019” hesabatı 190 ölkədə sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı olan qanunverici aktların və onların tətbiq olunmasını, obyektiv olaraq, qiymətləndirməyə imkan verir. Hesabat 11 indikator üzrə ölkələri təhlil etsə də, reytinq cədvəlində 10 indikatorun (əmək bazarının tənzimlənməsi indikatoru istisna olmaqla) göstəricilərindən istifadə olunur. Azərbaycanda da Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi və institutsional islahatlar ölkəmizdə sahibkarlıq mühitini getdikcə daha əlverişli etməkdədir. Dünya Bankının apardığı təhlillərin nəticələri bunu bir daha göstərir. İslahatların dərinləşməsi və əhatəliliyinin artması ölkəmizdə biznes mühitini daha da inkişaf etdirməklə əhalini rifah halının daha da yaxşılaşmasına imkan yaradacaq”.

### “İnkişafın Azərbaycan modeli bir nümunəyə çevrilib”



“İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib ki, bu gün dünya miqyasında inkişafın Azərbaycan modeli bir nümunəyə çevrilib: “Bütün sahələrdə tətbiq olunan innovasiyalar, həyata keçirilən təkmil islahatlar beynəlxalq aləmdə ölkəmizin siyasi çəkisini, iqtisadi gücünü durmadan artırır. Təbii ki, bu inkişaf beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapır. Bu günlərdə yayılan Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı ölkəsi sırasına daxil edilib. Hesabatda ölkəmiz dünyanın ən çox islahat aparan dövləti kimi qeyd edilib. Azərbaycan “Doing Business 2019” hesabatında 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək, 190 ölkə arasında 25-ci yeri tutub, bununla da, bir

# Dünyanın 10 ölkəsindən biri olan AZƏRBAYCAN

çox ölkələri geridə qoyaraq MDB məkanında lider mövqeyə yüksəlib. Rəqəmlərdən də göründüyü kimi, ölkəmiz böyük inkişaf yolu keçib. Bu inkişafı şərtləndirən mühüm amillər var. Bu amillərin önündə isə düşünülmüş və gələcəyə hesablanan məqsədyönlü siyasi strategiya dayanır. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təkmil islahatlar nəticəsində, "Doing Business 2019" hesabatında ölkəmizin əksər indikatorlar üzrə mövqeyi daha üst səviyyəyə qalxıb. Son illər ölkəmizdə qeyri-neft sektorunun inkişafı, xüsusi olaraq, diqqət mərkəzindədir. Kənd təsərrüfatının inkişafı, sənaye məhəllələrinin və aqroparkların yaradılması, ixrac imkanlarının genişləndirilməsi və digər istiqamətlərdə həyata keçirilən mühüm tədbirlər ölkəmizin sürətli inkişafını əks etdirən real mənzərədir. "Doing Business 2019" hesabatında deyildiyi kimi, Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib. Bununla yanaşı, Azərbaycan "Tikinti üçün icazələrin alınması" və "Kreditlərin alınması" indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək, böyük uğur qazanıb. Ümumilikdə, hesabatın 10 indikatorundan 8-də mühüm irəliləyiş baş verib. Hesabatda Qazaxıstan, Rusiya, Belarus, Qırğızıstan, Ukrayna, Özbəkistan və Tacikistanın geriləməsi, əvəzində isə, ölkəmizin daha ön sıralara yüksəlməsi, bir daha onu deməyə əsas verir ki, həyata keçirilən islahatlar öz bəhrəsini verir".

## "Ölkəmiz dünyada mövqeyini möhkəmləndirir"



"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevin sözlərinə görə, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın əhəmiyyətli dərəcədə irəliləməsi ölkəmizin dünyada mövqeyinin daha da möhkəmlənməsinə təsir göstərəcək: "Bu, Azərbaycanın apardığı iqtisadi-siyasi islahatlara dünyanın xüsusi önəm verməsinin aydın ifadəsidir. Artıq bütün dünya Azərbaycanın son beş ildə qeyri-neft sektorunun inkişafında çox əhəmiyyətli nəticələr əldə etdiyini görür. Ölkəmizdə qeyri-neft sektorunun inkişafı düzgün idarəçiliyin və aparılan hərtərəfli islahatların sayəsində mümkün olub. Bir ildə mötəbər bir reytinq sistemində 27 pillə irəliləmək xırda nailiyyət deyil. Müqayisə üçün demək lazımdır ki, Ermənistan bu reytinq sistemində o qədər də yaxşı yer tutmayan ölkələr qrupuna aid edilib və cəmi 6 pillə öz yerini yaxşılaşdıra bilib. Ancaq Ermənistanın reytinqdə tısbağa yerişi xarakterli mövqe yaxşılaşdırması onu pis göstəricili ölkələr siyahısına düşməkdən xilas edə bilməyib. Hesabatın Azərbaycana hazırkı yanaşması ölkəmizdə gedən islahatlar, iqtisadi sağlamlaşma, idarəçiliyin təkmilləşdirilməsi və investisiyaların təşviqi siyasətinin indiki templərinə tam uyğundur".

## "MDB ölkələri arasında ən yaxşı göstərici"



İqtisadçı ekspert Vüqar Bayramov qeyd edib ki, Dünya Bankının məşhur "Doing Business 2019" hesabatında ölkəmizin mövqeyinin güclənməsi 8 islahatla bağlıdır: "Bu, həm Bakı Şəhər İcra Hakimiyyətində inşaat üçün icazənin verilməsi ilə bağlı prosedurun sadələşdirilməsi, bir pəncərə sisteminin tətbiq edilməsi ilə bağlıdır. Bu sistemin tətbiq edilməsi, praktiki olaraq, daha qısa zamanda icazənin əldə edilməsinə şərait yaradır ki, bu da icazələrin sayının 80 gün, icazə üçün tələb olunan məbləğin 12 min 563 manat, təxminən 7500 dollar azalmasına gətirib çıxarıb. Digər islahat "ASAN Xidmət" vasitəsilə elektrik enerjisinə çıxış imkanlarının artırılması ilə bağlıdır ki, bu da, məhz Azərbaycanın mövqeyinin sözügedən hesabatda möhkəmlənməsinə təsir edən faktlardan biridir. Daşınmaz əmlakın qeydiyyatı prosesinin asanlaşdırılması, şəffaflığın gücləndirilməsi və daha asan prosedurların tətbiq edilməsi də, ölkəmizin mövqeyinin yaxşılaşdırılmasına daxil olan islahatlardan biridir. Kreditə çıxış imkanlarının gücləndirilməsi, xüsusilə də, kredit bürolarının yaradılması ölkəmizin mövqeyinə birbaşa təsir göstərir. O cümlədən, investorların hüquqlarının qorunması ilə bağlı qaydaların təkmilləşdirilməsi, xüsusilə də, kiçik payı olan səhmdarların hüquqlarının qorunması mexanizminin işlənməsi Azərbaycanda aparılan islahatlardan biridir. Vergi ödənişlərinin sadələşdirilməsi, asanlaşdırılması istiqamətində atılan addımlar da ölkəmizin mövqeyinə birbaşa təsir göstərib".

Azərbaycanda xarici ticarət əməliyyatlarında yaşıl dəhlizin tətbiq edilməsinin ölkəmizin hesabatdakı mövqeyinin möhkəmləndirilməsinə xidmət etdiyini deyən iqtisadçı-ekspert bildirib ki, müflisləşmə ilə bağlı prosedurların sadələşdirilməsi və əmək bazarında yeni qaydalar da ölkəmizin mövqeyinə birbaşa təsir edib: " Praktiki olaraq, Azərbaycan bu kontekstdən ötən il dünyada ən çox islahat aparan ölkə statusunu qoruyub-saxlayıb. Eyni zamanda, biz hesabata əsasən, Dünya Bankının qiymətləndirməsinə uyğun olaraq, ölkəmizin hesabatla bağlı mövqelərinə diqqət etsək, burada diqqəti çəkən məqamlardan biri biznesə başlamağa görə Azərbaycanın 9-cu yerdə, yəni ilk onluğa daxil olduğunu görərik. Burada tələb edilən günlərin sayı 3,5, tələb edilən xərc adambaşına düşən kapitalın 1,3 faizidir və minimum kapital tələb olunmur. Eləcə də, daşınmaz əmlakın qeydiyyatına görə, Azərbaycan bu il 20-liyə daxildir. Ölkəmiz bu göstərici üzrə 17-cidir. Tələb edilən prosedur 3, günlərin sayı 5,5-dir. Bu da, təbii ki, ölkəmizin mövqeyinin möhkəmlənməsinin səbəblərindən biridir. Kreditlərə əlçatanlığın təmin edilməsinə görə, Azərbaycanın dünyada 22-ci olması kifayət qədər ciddi rəqəmdir. Xüsusilə də, leqal hüquqların qorunmasında da Azərbaycanın mövqeyinin güclənməsi diqqəti çəkən məqamlardan biridir. Az səhmə malik olan investorların hüquqlarının qorunmasına görə, ölkəmiz 2-cidir. Bu göstərici ilə Azərbaycanın balı 100 ballıq sistemdə 81,67 bal kimi göstərilir ki, bu da kifayət qədər ciddi rəqəmdir. Vergi ödənişlərinə görə, ölkəmiz 28-cidir ki, bu da mövqeyimizin güclənməsinə səbəb olan amillərdən biridir".

## "Azərbaycanın 3 istiqamət üzrə mövqeyinin yaxşılaşdırmasına ehtiyac var"

V.Bayramov əlavə edib ki, təqdim olunan hesabata əsasən, məlum olur ki, Azərbaycanın gələcəkdə 3 istiqamət üzrə mövqeyinin yaxşılaşdırılmasına ehtiyac var: "Bu, xarici ticarət əməliyyatları, tikintiyə icazənin verilməsi ilə bağlı qaydalarının daha da sadələşdirilməsi, eyni zamanda, elektrik enerjisinə çıxış imkanlarının artırılmasına dair mexanizmlərin sadələşdirilməsi gələcəkdə ölkəmizin mövqeyinin daha da yaxşılaşmasına gətirib çıxara bilər. Bütövlükdə, hesabat son illər Azərbaycanda aparılan islahatların nəticə etibarı ilə ölkəmizin dünyanın ən aparıcı hesabatında mövqeyinin kəskin möhkəmlənməsinə gətirib çıxardığını göstərir. Eyni zamanda, aparılan islahatlara beynəlxalq qiymət kimi xarakterizə olunmalıdır. Praktiki olaraq, 2004-cü ildən dərinləşən islahatlar ölkəmizin beynəlxalq hesabatlarda mövqeyinin daha da yaxşılaşmasına, son illər hazırlanan hesabatlarda Azərbaycanın daha da güclənməsinə gətirib-çıxarıb".

*Nailə Məhərrəmova*

## Vilayət Vəliyev: "Doing Business-2019" hesabatına əsasən Azərbaycan ən islahatçı 10 ölkə siyahısındadır

"Doing Business-2019" hesabatına əsasən, Azərbaycan Çin, Hindistan, Əfqanıstan və Türkiyə kimi ölkələrin də yer aldığı ən islahatçı 10 ölkə siyahısındadır. Azərbaycanda son 15 ildə aparılan köklü islahatlar ölkə iqtisadiyyatının inkişafında müsbət meyilləri daha da sürətləndirib. Xüsusilə, son 3 ildə aparılan islahatların məntiqi davamı olan və iqtisadiyyatın sektorları üzrə daha genişmiqyaslı təsir imkanlarına malik iqtisadi siyasətin nəticəsi olaraq ölkənin iqtisadi və sosial inkişafı üçün yeni mexanizmlər fəaliyyətə başlayıb.



Bunu AZƏRTAC-a Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru professor Vilayət Vəliyev Dünya Bankının "Doing Business 2019" hesabatına münasibət bildirərək deyib.

Milli iqtisadiyyat və iqtisadiyyatın sektorları üzrə Strateji Yol Xəritəsinin icrası 11 sektoru əhatə etməklə, eyni zamanda, kiçik və orta biznesin inkişafını hədəfləyir. Bu sahədə ölkədə aparılan dərin islahatlar beynəlxalq təşkilatlar tərəfindən də müsbət qiymətləndirilir. Belə ki, Dünya Bankı tərəfindən təqdim edilən "Doing Business-2019" hesabatına əsasən, Azərbaycan Çin, Hindistan, Əfqanıstan və Türkiyə kimi ölkələrin də yer aldığı ən islahatçı 10 ölkə siyahısındadır.

Biznesə başlamanın asanlığı reytinqi üzrə ölkəmiz 25-ci yerdə olmaqla əvvəlki illə müqayisədə +7,10 səviyyə yüksəlişi əldə edib. Bu pillədə irəliləyişə səbəb tikintiyə icazələr, elektrik enerjisindən istifadə, əmlakın qeydiyyatı, kredit əldə etmə, azlıq təşkil edən investorların qorunması, vergilərin ödənməsi, xarici ticarət və iflas prosedurları göstəricilərinin yaxşılaşmasıdır. Azərbaycan 2017-2108-ci illərdə biznesə başlamanın asanlığı üçün 8 istiqamətdə islahat aparıb. Bu islahatlar biznes mühitini yaxşılaşdırmaqla müsbət nəticələrini göstərməkdədir.

Qeyd edilən islahatların aparılması ölkədə biznes mühitinin əsas subyektləri kimi hədəflənən mikro, kiçik və orta sahibkarlar üçün vahid dövlət siyasətinin formalaşdırılması, onların hüquqlarının müdafiəsi, dövlət qurumlarının sahibkarlara vahid məkanda daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə xidmət göstərmələrini zəruri edir.

Bu məqsədlə, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb və dövlət qurumlarının sahibkarlara göstərdikləri xidmətlər üzrə qiymətləndirmələrin aparılması, bu xidmətlərin elektron formada həyata keçirilməsi üçün müvafiq proqram təminatının, informasiya sistemlərinin, məlumat bazalarının və xidmətlər reyestrinin yaradılması sahəsində işlərin icrasına məsul hesab edilir. Qeyd edək ki, agentliyin kiçik və orta biznes subyektlərinə xidmətlərə dair fəaliyyəti müvafiq islahatları zəruri etdiyindən ölkədə biznes mühitinin yaxşılaşmasına və biznesə dair prosedurlara müsbət töhfə verəcək.

# Ölkəmizdə söz və mətbuat azadlığı tam təmin olunub

*İlham Əliyev: "Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilibdir, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı"*

***Müasir dövrümüzdə Cöz və mətbuat azadlığı cəmiyyətdə demokratiyanın meyarı və ölçüsü rolunu oynayır. Mətbuatımızın inkişaf tarixindən bəhs edərkən, dövlət müstəqilliyimizin bərpasından sonrakı dövr daha çox xarakterizə edilir.***



Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycan Respublikası regionun siyasi-iqtisadi və humanitar mərkəzi statusunu qazanaraq, beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuşdur. Mövcud inkişaf dinamikası Azərbaycanın milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir. Dünyada informasiya məkanının gündəngünə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirir, Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutur.

Ölkəmizdə söz və mətbuat azadlığının təmin olunması istiqamətində ciddi addımlar atılır və bu sahənin inkişafı ilə bağlı bir sıra uğurlu layihələr həyata keçirilir. Müasir dövrdə mətbuat və söz azadlığı cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi kimi qəbul olunur. Kütləvi informasiya vasitələri, qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr cəmiyyətdə ictimai fikri və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir.

Respublikamızın ictimai-siyasi və sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Paytaxtımızda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunda çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanda bütün fundamental azadlıqların təmin edildiyini qeyd edib:"... o cümlədən, söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir".

Məlumdur ki, dövlət başçısı İlham Əliyevin səyi ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb və onların borcları ləğv edilib. Respublikamızın ictimai-siyasi və sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır.

Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə, "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürüdür. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə, təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan maliyyə vəsatinin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz təcəssümüdür. Bütün bunlar, həm də təsdiqləyir ki, Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır və bu sahədə həyata keçirilən islahatları, demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir.

Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən, bütün sahələrdə olduğu kimi, milli mətbuat da diqqətdə saxlanılır və həssaslıqla yanaşılır. Bütün bunlar Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist peşəsinə və əməyinə verdiyi yüksək qiymətin göstəriciləridir.

Təbii ki, respublikamızın tarixi inkişafında əldə olunmuş yüksək səviyyə milli mediamız qarşısında da yeni vəzifələr qoyur. Bu gün belə diqqət və qayğı ilə əhatə olunan Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub-saxlanması və təbliğində mühüm rol oynamalıdır. Azərbaycan jurnalistikası obyektivlik, qərəzsizlik və vətənpərvərlik prinsiplərinə əməl etməlidir. Hər bir mətbuat işçisi istənilən vəziyyətdə məsuliyyət hissini unutmamalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladğı kimi, bu gün ölkəmizin artan imkanları kütləvi informasiya vasitələrinin, o cümlədən, milli mətbuatımızın inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır: "Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır".

***Nəzakət ƏLƏDDİNQIZI***

## Son 15 ildə kənd təsərrüfatı məhsullarının ixrac həcmi 6,3 dəfə artıb



Son 15 ildə kənd təsərrüfatı məhsullarının ixrac həcmi 6,3 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 10,4 dəfə, cari ilin səkkiz ayında isə tərəvəz ixracı 8,4 faiz, meyvə ixracı 32,5 faiz və pambıq xammalı ixracı 2,2 dəfə artıb. Bu faktları kənd təsərrüfatı naziri İnam Kərimov 1 noyabr - Kənd Təsərrüfatı İşçiləri Günü münasibətilə AZƏRTAC-da dərc olunmuş məqaləsində açıqlayıb.

Nazir bildirib ki, ölkədə uğurla aparılan aqrar siyasət nəticəsində kənd təsərrüfatında əlverişli bazar şərtləri formalaşıb və biznes fəallığı xeyli yüksəlib. Bunlar özünü aqrar sektorda muzdla çalışan işçilərin sayının və investisiya qoyuluşunun həcminin artmasında da büruzə verib. Yerli istehsal üzrə potensialın güclənməsi və rəqabətqabiliyyətliliyin yüksəlməsi hesabına ölkədə ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi də əsaslı şəkildə artıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi dövrlərdə ət və süd məhsulları üzrə bu göstərici 30-35 faiz olduğu halda, hazırda 90 faizə yaxındır. Bütün növ tərəvəz və meyvə ilə özünütəminetmə səviyyəsi 100 faizdən çoxdur. "Ayrı-ayrı sahələr üzrə özünütəminetmə səviyyəsinin yerli istehsal hesabına artırılması, inkişaf və idarəetmə məsələlərinin daha çevik tənzimlənməsi, dövlət dəstəyini gücləndirməklə müvafiq sahələr üzrə proqram yanaşmasının tətbiq edilməsi və ünvanlı siyasət tədbirləri mexanizminin yaradılması məqsədilə dövlətimizin başçısının tapşırığına əsasən "Heyvandarlığın intensiv inkişaf etdirilməsinə və örüş-otlaq ərazilərinin səmərəli istifadə olunmasına dair Dövlət Proqramı", "Taxılçılığın inkişafına dair Dövlət Proqramı" və "Toxumçuluğun inkişafına dair Dövlət Proqramı"nın hazırlanması istiqamətində aparılan işlər yekun mərhələsindədir", - deyə İnam Kərimov qeyd edib.

## "Paşinyanın Aİ-dən pul dilənməsi Ermənistanın acınacaqlı vəziyyətindən xəbər verir"



"Paşinyan Avropa İttifaqına maliyyə yardımı ilə bağlı hələ hakimiyyətə gəldiyi ilk günlərdə müraciət etmişdi. Amma bu müraciət Aİ tərəfindən maraqsız qarşılanmışdı. Lakin Paşinyanın yenidən pul istəməsi, artıq dilənçilikdir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə deyib. O bildirib ki, Avropa İttifaqı dəfələrlə Ermənistana kredit ayrılmaqla bağlı niyyətinin olmadığını açıqlayıb: "Çünki, kredit hər hansı məqsədə, layihəyə görə ayrılır. Lakin son illə Ermənistanda Aİ üçün maraqlı olan heç bir layihənin olmadığını nəzərə alsaq, Aİ rəsmiləri də bu niyyətdə olmadıqlarını açıqlayırlar".

Politoloq söyləyib ki, Paşinyanın Avropa İttifaqından maliyyə vəsaiti istəməsi, Ermənistanın acınacaqlı vəziyyətindən xəbər verir: "Əgər Aİ-nin maliyyə dəstəyi ilə bağlı niyyətinin olmadığı halda Paşinyan yenidən onlara müraciət edirsə, deməli ki, Ermənistanın vəziyyəti olduqca acınacaqlıdır. Paşinyan bu yardımla hansısa məsələləri çözməyə, müəyyən problemləri həll etmək niyyətindədir. Bildiyiniz kimi, Ermənistanda çox ağır sosial, iqtisadi vəziyyət hökm sürür. Yəqin ki, o, vətəndaşlarının pensiya təminatı, maaşların verilməsi kimi məsələləri həll etmək istəyir. Hazırda seçki prosesinə hazırlıq getdiyi üçün bu problemlərin həlli onun üçün çox vacibdir".

Hazırda Ermənistanda yeni ilin büdcəsinin müzakirə olunduğunu deyən İ. Vəlizadə söyləyib ki, Paşinyan Aİ-dən alacağı maliyyə hesabına müəyyən imkanlar yaratmaq istəyir: " Bildiyiniz kimi, ötən ilin bu dövründə sabiq ölkə başçısı Serj Sarkisyan Aİ ilə strateji əməkdaşlıqla bağlı saziş imzalamışdı ki, sənədə əsasən Ermənistana müəyyən maliyyə yardımı ayrılmışdı. Çox güman ki, Paşinyan da həmin sənədə əsasən Aİ-dən maliyyə vəsaitinin ayrılması ilə bağlı xahiş edib. Amma Aİ-nin yanaşma tərzində Ermənistana heç bir maliyyə krediti nəzərdə tutulmayıb".

## Bakıda178 min dolları ələ keçirən hakerlər həbs olundu



Daxili işlər orqanlarının əməkdaşları yeni nəsil informasiya texnologiyalarından istifadə edilməklə törədilən kibercinayətlərlə mübarizə, onların qarşısının alınması və ifşa edilməsi istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçirib. DİN-in mətbuat xidmətindən bildirilib ki, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə xüsusi kiberproqramlardan istifadə edilməklə xarici ölkələrdə yerləşən müxtəlif bankların müştərilərinin şəxsi hesablarına qanunsuz müdaxilə olunduğu, həmin hesablardan külli miqdarda pulun oğurlanaraq başqa kartlara transfer edildiyi və ölkəmizdə nağdlaşdırıldığı barədə məlumat daxil olub.

Baş İdarə əməkdaşları tərəfindən keçirilən xüsusi əməliyyat-axtarış və texniki tədbirlər nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən Bakı şəhər sakini Fuad Hüseynov və Mingəçevir şəhər sakini Şahin Əhmədli saxlanılıblar.

Araşdırma zamanı müəyyən edilib ki, F.Hüseynov və Ş.Əhmədli xarici ölkələrdə yerləşən bankların müştərilərinin bank kartlarından ümumilikdə 178.000 ABŞ dolları məbləğində pul vəsaitini qanunsuz olaraq öz şəxsi hesablarına köçürüblər. Bundan sonra pullar dəstə üzvləri tərəfindən nağdlaşdırılıb. Baxış zamanı saxlanılan şəxslərin yaşadıqları mənzillərdən xüsusi haker proqramlarının yazıldığı noutbuklar, planşetlər, elektron sübutlar və iş üçün əhəmiyyət kəsb edən digər dəlillər müəyyən edilərək götürülüb. Həmin texniki avadanlıqlara baxış keçirilən zaman onların yaddaşlarından xarici ölkə vətəndaşlarına məxsus bank hesabları və kartların məlumatları da aşkar olunub. Qeyd edilən faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# "Valideyn nəzarəti və internet təhlükəsizliyi" proqramının ("Kidsafe") təqdimatı keçirilib

**_Dünən "Valideyn nəzarəti və internet təhlükəsizliyi" proqramının ("Kidsafe") təqdimatı keçirilib. Tədbirdə uşaq hüquqlarını qoruyan müvafiq dövlət qurumları, yerli və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər._**



Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, Azərbaycanda uşaqların internet təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvafiq silsilə tədbirlər həyata keçirilir. Bu tədbirlərin davamı olaraq, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələrinə əsasən, "Valideyn nəzarəti və internet təhlükəsizliyi" (www.kidsafe.az) proqramı hazırlanıb: "Proqram "Uşaqların internet təhlükəsizliyi" layihəsi çərçivəsində yaradılıb. Valideyn-internet təhlükəsizliyi və nəzarət proqramının yaradılmasında əsas məqsəd uşaqların kompyuter təhlükəsizliyinin və onlara nəzarətin təmin olunmasıdır. Biz uşaqlarımızı internet vasitəsilə gələcək təhlükələrdən də qorumağa çalışmalıyıq. Əsas təhlükələrdən biri onların cinayətkarların əhatə dairəsinə düşməsidir. Uşaqlar üçün ifrat dərəcədə zərərli olan oyunlar da onlarda müəyyən xoşagəlməz hallar yaradır".

H.Hüseynova vurğulayıb ki, komitə tərəfindən internetdə uşaq hüquqlarının müdafiəsi məqsədilə milli qanunvericilik təkmilləşdirilir, maarifləndirici tədbirlər keçirilir və təhlükəsizlik proqram sistemləri yaradılır. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun 15-ci maddəsinə əsasən, "uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması müvafiq qanunla tənzimlənir". Bu günlərdə Dövlət Komitəsi tərəfindən hazırlanan "Uşaqların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorunması haqqında" Qanun layihəsi Milli Məclis tərəfindən qəbul edilib. Lakin bu Qanun 2020-ci ildə qüvvəyə minəcək.

"Kapital Bank" ASC-nin İdarə Heyətinin sədri Rövşən Allahverdiyev çıxış edərək, bildirib ki, müasir dövrdə rəqəmsallaşma, artıq həyatımızda xüsusi yer alaraq, bir tendensiyaya çevrilmişdir. Unutmaq olmaz ki, uşaqların internetdən təhlükəsiz istifadə etməsi istiqamətində həyata keçirilən tədbirlərin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir və bu cür tədbirlərin reallaşmasına dəstək vermək lazımdır.

Daha sonra çıxış edən BMT Uşaq Fondunun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Edvard Karvardin online-proqramın əhəmiyyətini qeyd edərək bildirib ki, özəl sektorun da bu sahəyə maraq göstərməsi mühüm addımdır. O deyib ki, internet uşaqlara pozitiv imkanlar da yaradır, yeni dostluq əlaqələrinin qurulması, yeni mədəniyyətlərin mənimsənilməsi və digər müsbət istiqamətlərdə məharətlə istifadə edilməsi vacib sayılmalıdır. Yeni cəmiyyətdə, elə təbəqələr vardır ki, onlar internetin imkanlarından sui-istifadə edərək, uşaqlara zərər yetirir, istismara cəlb edirlər.

Tədbirdə çıxış edən Daxili İşlər Nazirliyi Baş idarəsinin şöbə rəisi Adıgözəl Adıgözəlov uşaqlar arasında maarifləndirmə tədbirlərinin artırılmasının vacibliyini vurğulayıb. Bildirib ki, uşaqlar yalnız evdə mövcud olan, internetdən istifadə etmirlər. Onlar müəyyən məkanlarda, internet klublarda, məktəblərdə internetə qoşulur və informasiyalar əldə edirlər.

Tədbirdə çıxış edən Nazirlər Kabinetinin Humanitar və sosial məsələlər şöbəsinin aparıcı məsləhətçisi Gülnur Rzayeva, Azərbaycan Respublikası Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndəsi Nigar Hüseynova, Azərbaycan Respublikası Nəqliyyat-Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndəsi Aysel Hadıyeva çıxış edərək, öz təklif və rəylərini qeyd ediblər. Çıxışçılar bu cür layihələrin həyata keçirilməsini müsbət addım kimi qiymətləndirərək, davamlı olmasının vacibliyinə diqqətə çəkiblər.

"E-box" şirkətinin rəhbəri Şamo Salayev "kidsafe.az" proqram təminatı haqqında təqdimatla çıxış edərək, proqramın əsas xüsusiyyətləri və istifadə qaydaları haqqında geniş məlumatları diqqətə çatdırıb.

Tədbirin sonunda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və "Kapital Bank" arasında 2 illik əməkdaşlıq memorandumu imzalanıb. Əməkdaşlıq çərçivəsində uşaq hüquqlarının müdafiəsi sahəsində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, uşaqların internetdən təhlükəsiz istifadəsi sahəsində proqram sistemlərinin yaradılması, sosial çarxların çəkilməsi və bu sahədə konfransların və digər tədbirlərin təşkili nəzərdə tutulub.

**_ZÜMRÜD BAYRAMOVA_**

# Bakı Funikulyoru yenidən fəaliyyətə başladı



Bir müddət idi ki, profilaktika işləri ilə əlaqədar işləməyən paytaxtımızın rəmzlərindən birinə çevrilmiş Bakı Funikulyoru artıq bu gündən yenidən fəaliyyətinə başlamışdır. Keçən müddət ərzində Funikulyorun stansiyaları və vaqonlarda cari profilaktika işləri görülmüş, istismar müddəti bitən akkumulyatorlar yeniləri ilə əvəz olunmuş, texniki təhlükəsizlik qaydaları tələblərinə uyğun vaqon və digər avadanlıqların diaqnostikası və profilaktikası aparılmış, funukulyor sərnişinlərin təhlükəsiz daşınması üçün tam hazır vəziyyətə gətirilmişdir. SİA-ya Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətindən verilən məlumata görə, texniki problemləri aradan qaldırmaq üçün tələb olunan avadanlıq xaricdən gətirilib. İşçilər yeni geyimlərlə təmin olunublar. Bakı Lift-Təmir İstehsalat Birliyi tərəfindən burada aparılan işlər başa çatdirilib və Funikulyorun fəaliyyətinə start verilib.

Bakı Funikulyorunun rəisi Tofiq İsmayılov bildirib ki, şəhərimizdə funikulyor 1960-ci ildə mayın 5-də istifadəyə verilib. Sovet dövründə Bakı Funikulyorunun qatarları xüsusi sifarişlə Leninqrad, avadanlıqlar isə Xarkov şəhərində hazırlanaraq paytaxımıza gətirilib. Funikulyorda dəmiryol xəttinin uzunluğu 455 metr, vaqonların sayı isə 2 olub. Vaqonlar saniyədə 3,0 metr sürətlə hərəkət edərək 3 dəqiqə ərzində 1 stansiyadan digərinə çatmaq üçün 455 metr yol qət edib. Bəhramgurun heykəli ilə Şəhidlər Xiyabanı arasında lift rolunu icra edən Funikulyorda vaqonlar arası interval 10 dəqiqə olub. Funikulyor saatda orta hesabla 300 sərnişini daşımaq imkanına malik olub. Bakı Funikulyoru indiyədək 2001 və 2007-ci ildə iki dəfə əsaslı şəkildə təmir edilib.

# "Həmsədrlərin regiona səfərləri turist səfərlərinə bənzəyir"

Ekspertlər həmsədrlərin budəfəki səfərindən də nəticə gözləmədiklərini bildirdilər. Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistandan sonra Bakıya gəliblər. ATƏT-in Minsk Qrupunun həmsədrləri - Stefan Viskonti (Fransa), İqor Popov (Rusiya), Endryu Şefer (ABŞ) Azərbaycan rəsmiləri ilə bir sıra görüşlər keçirəcəklər. Görüşlərdə qoşunların təmas xəttindəki vəziyyət, gərginliyin azaldılmasının, həmçinin, danışıqlar prosesinin aktivləşdirilməsi və sonrakı addımların təmin olunması üzrə məsələlər müzakirə ediləcək. Səfər zamanı, həmçinin, bu ilin sonunadək Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında görüşünün keçirilməsi məsələsi də müzakirə olunacaq. "Budəfəki səfərdən münaqişənin həlli ilə bağlı hər hansı bir gözləntilər varmı" sualı ilə müraciət etdiyimiz müsahiblərimiz həmsədrlərin səfərindən nəticə gözləmədiklərini bildiriblər.

## Millət vəkili Tahir Kərimli: "Münaqişənin həllində real nəticələr yoxdur"



- Beynəlxalq hüquqa əsasən, ATƏT-in Minsk Qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı göstərdiyi səylərə hörmətlə yanaşılır və nəticə gözlənilir. Ancaq təəssüflər olsun ki, münaqişənin həllində real nəticələr yoxdur. Xüsusilə, bu dəfə onların yenidən Ermənistan vasitəsi ilə Xankəndiyə gəlməsi, separatçı rejimin rəhbərləri ilə görüşməsi və bu barədə hər hansı bir bəyanat verməmələri narahatçılıq yaradır. Çünki biz bilirik ki, Paşinyan birbaşa bəyanat verir ki, Dağlıq Qarabağ rəhbərliyi danışıqlarda tərəf kimi iştirak etsin. Yəni buna reaksiya vermək lazımdır. Halbuki bunu heç həmsədrlərin özləri də qəbul etmirlər. Çünki yaxşı bilirlər ki, heç vaxt Azərbaycan buna razı olmayacaq. Bu baxımdan, həmsədrlərin budəfəki səfərinə daha çox ümid edirdiksə, əksini müşahidə etməkdəyik. Deməli olar ki, həmsədrlərin regiona səfərləri turist səfərlərinə oxşayır və elə də davam edirlər. Ümumiyyətlə, məsələn, Fransa tərəfi açıq şəkildə bildirir ki, biz Ermənistana təzyiq etməyəcəyik ki, danışıqları sürətləndirsin. Yaxşı, Ermənistan beynəlxalq hüquqla, danışıqlar yolu ilə münaqişənin həllindən qaçır. Bəs o zaman hansı yol qalır? ATƏT-in Minsk Qrupu həmsədrləri də, Ermənistana heç bir təzyiq göstərmirlər. Bu da Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasına səbəb olur.

## Siyasi şərhçi Azər Həsrət: "Münaqişənin həlli istiqamətində hansısa dəyişiklik haqqında danışa bilmərik"



- ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfəri müəyyən ümidlər doğura bilər. Amma ümumilikdə, münaqişənin həlli istiqamətində hansısa dəyişiklik haqqında danışa bilmərik. Birincisi, ona görə ki, hazırda Ermənistanda hakimiyyət davası gedir, onların, ümumiyyətlə, danışıqlar prosesini davam etdirməsi sual altındadır. Azərbaycana səfərlərini başa vurduqdan sonra bildiriblər ki, bəyanat verəcəklər və tərəfləri dinc yolla münaqişəni həll etməyə çağırmaqda davam edəcəklər və çıxıb gedəcəklər. Yəni buna görə də, nəyin isə həll olunacağı haqqında danışmaq olmaz. Digər tərəfdən də, ümumiyyətlə, bunlar artıq 20 ildən çoxdur ki, regiona gəlib-gedirlər və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir nailiyyətləri yoxdur. ATƏT-in Minsk Qrupunun həmsədrləri, sadəcə olaraq, turist kimi gəlib-gedirlər. Xatırlayırsınızsa, Rusiya, Fransa və ABŞ-da dəfələrlə bu həmsədrləri dəyişiblər və əvəzində yeni şəxslər gəlib. Onlar da vəzifə başına gələn kimi, regiona tanışlıq səfəri ediblər. Bu tanışlıq səfəri də bir müddət vaxt alıb. Ondan sonra qayıdıblar. Birlikdə görüşüblər, prezidentlər, xarici işlər nazirləri ilə görüşüblər. Yəni yenə də münaqişə həll edilmədən qalıb. Ona görə də, mən çıxış yolunu bunların xidmətindən imtina etməkdə görürəm. Boş yerə onlara pul xərclənməməlidir. Ümumiyyətlə, ATƏT kimi bir təşkilat nəyə görə, heç bir nəticə əldə edə bilməyən şəxsləri maliyyələşdirməlidir və yaxud ki, niyə həmsədr dövlətləri, sadəcə olaraq, dünyaya görüntü yaratmalıdırlar ki, bəli, biz münaqişənin dinc yolla həlli üçün çalışırıq. Çıxış yolu nədədir? Çıxış yolu ondadır ki, Azərbaycanla Ermənistan masa arxasına vasitəçilərsiz otursun və konkret istiqamətdə müzakirələr aparsın. Yəni Azərbaycan Ermənistana, konkret olaraq, öz istəklərini göstərməlidir, Ermənistanda konkret fikirlərini bildirməlidir. Belə olacağı təqdirdə, münaqişə həllini tapacaq. Azərbaycanın gücü var və biz silah gücü ilə o torpaqları azad etmək variantını işə salmaq dünyaya da göstərməliyik ki, Ermənistanla dinc yolla münaqişənin həlli istiqamətində nəticəyə nail ola bilmirik. Ona görə də, Azərbaycan xalqının səbri tükənib və biz öz torpaqlarımıza qayıtmaq məcburiyyətindəyik. Bunu da öz gücümüzə edəcəyik.

**_GÜLYANƏ_**

# Repressiya qurbanı olmuş ziyalılarımız unudulmur

*Jalə Əliyeva: "Dövlət başçısının Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı məsələnin araşdırılması üçün göstəriş verməsi dərin köklərə söykənir"*



***Azərbaycan tarixində izi olan insanlar hər zaman dövlətimiz tərəfindən böyük məhəbbətlə yad olunur və onların keçdiyi həyat yolu və fəaliyyəti tədqiq olunur, öyrənilir. Elə böyük şair, milli folklordan və klassik ədəbi ənənələrdən layiqincə bəhrələnməklə yaratdığı dərin lirizmə malik və doğma dilin bütün gözəlliklərini özündə ehtiva edən bənzərsiz poetik nümunələrlə Azərbaycanın çoxəsrlik bədii fikir xəzinəsini daha da zənginləşdirən Mikayıl Müşfiq də bu sıradadır.***

Forma yeniliyi, məzmun genişliyi, romantik əhval və yüksək həyat eşqi bu söz sənəti incilərinin başlıca keyfiyyətləridir. Belə bir yaradıcılıq imkanlarına malik, Azərbaycan ədəbiyyatının inkişafına dəyərli töhfələr vermiş görkəmli şair Mikayıl Müşfiqin anadan olmasının 110-cu ildönümünün qeyd olunması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamı Azərbaycan mədəniyyətinə, söz və fikir dünyamıza, Müşviq irsinə və onun sənət dünyasına olan diqqət qayğının bariz nümunəsidir.

Azərbaycan poeziyasının inkişafında böyük rol oynamış, Stalin repressiyasının qurbanı olmuş və 1938-ci ildə güllələnmiş şair Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı son zamanlar kütləvi informasiya vasitələrində yayılan materiallar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqətini cəlb edib. Ölkə başçısı məsələnin araşdırılması üçün AMEA, səhiyyə, mədəniyyət nazirlikləri və digər əlaqədar qurumların nümayəndələrindən ibarət İşçi Qrupun yaradılması barədə göstəriş verib. Tapşırığa əsasən, Mikayıl Müşfiqə məxsus olduğu ehtimal edilən qalıqlar müvafiq qaydada DNK ekspertizasından keçiriləcək. Əgər qalıqların, həqiqətən, ona məxsus olduğu təsdiqini taparsa, şairin yenidən dəfn olunması ilə bağlı bütün zəruri tədbirlər görüləcək.

Millət vəkili Jalə Əliyeva Azərbaycan Prezident İlham Əliyevin məsələnin araşdırılması üçün verdiyi göstərişi dövlət başçısının mənəviyyatımıza, mədəniyyətimizə, irsimizə diqqət, qayğı, həssas münasibət olduğunu qeyd etdi. Bildirdi ki, milli düşüncənin, milli məfkurənin repressiya qurbanına çevrildiyi bir zamanda Mikayıl Müşfiqlər, Hüseyn Cavidlər, Əhməd Cavadlar, bir sözlə, düşünən beyinlər, vətənpərvər insanlar zamanla üz-üzə durmuş, sərt ittihamlar, qasırğalar qarşısında mərdlik və dözüm nümayiş etdirmişlər. Haqsız hücumlara məruz qalan fitri istedad sahibi olan M.Müşfiqin də ömrü yarımçıq qalır. J.Əliyeva belə bir şairə Cənab Prezidentimiz tərəfindən ayrılan diqqətin dərin köklərə söykəndiyini bildirdi: "Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və prinsipial mövqeyi nəticəsində, yalnız 41 ildən sonra Hüseyn Cavidin cənazəsinin qalıqları vətənə qaytarıldı. Hüseyn Cavidin nəşinin hələ 1982-ci ildə Uzaq Sibirdən vətəninə gətirilməsi və Naxçıvanda məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması milli ruhun dirçəlişi və azərbaycançılıq məfkurəsinin təntənəsi baxımından, müstəsna əhəmiyyətə malik misilsiz bir hadisədir. Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin bu göstərişi həmin hadisə ilə səsləşir və həmahənglik təşkil edir. Bu, Cənab Prezidentin Azərbaycan mədəniyyətinə, mədəniyyət və incəsənət xadimlərinə, xüsusilə, repressiya qurbanı olmuş ziyalılarımızın xatirəsinə böyük diqqətidir".

Millət vəkili böyük cəsarəti ilə represiya illərində misralarından od-alov püskürən şairə bu münasibətin təqdirəlayiq olduğunu diqqətə çatdırdı.

M.Müşfiqi bütün nəsillərin müasiri edən, həmişə sevdirən onun ürəkdən gəlmiş, səmimiyyətlə dolu poeziyasının xalq ruhu ilə bağlılığı, Azərbaycanımızı böyük məhəbbətlə tərənnüm edib sevdirməsi, vətəndaşlığı və cazibə qüvvəsilə oxucuların qəlbini ehtizaza gətirməsidir. Belə bir sənətkara dövlətimiz tərəfində ayrılan diqqət milli mədəniyyətimizə, ədəbiyyatımıza, eləcə də, ömrünü xalq, vətən yolunda fəda edən, ictimai-siyasi hadisələrdə, birmənalı olaraq, vətəndaşlıq mövqeyi nümayiş etdirən şəxsiyyətlərə olan yüksək münasibətin təzahürüdür.

**Nəzakət ƏLƏDDİNQIZI**

***Dünən Pirallahı rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatının təşkilatçılığı ilə Neft Daşları qəsəbəsində 9 Noyabr - Bayraq Günü ilə bağlı "Bayrağımız qürurumuzdur!" başlığı altında bayram tədbiri keçirilib. Tədbir öncəsi YAP Pirallahı rayon təşkilatının sədri, YAP Pirallahı rayon təşkilatı aparatının əməkdaşları, Neft Daşları NQÇİ-nin rəhbərliyi Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər.***



# "Bayrağımız qürurumuzdur!"

*Pirallahı RİH və YAP Pirallahı rayon təşkilatının birgə təşkilatçılığı ilə Neft Daşları qəsəbəsində 9 Noyabr - Bayraq Günü ilə bağlı bayram tədbiri keçirilib*



Tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatı sədrinin müavini, Neft Daşları NQÇİ-nin rəisi Qoçalı Mahmudov bu günlərdə təsis olunmasının 100 illiyini qeyd etdiyimiz üçrəngli bayrağımızın hər bir azərbaycanlı üçün müqəddəs olmasından, ölkə başçısı İlham Əliyevin dövlətçiliyimizin inkişafındakı xidmətlərindən danışaraq qeyd edib ki, bu gün müstəqil Azərbaycanın bayrağının dünya arenasının ən yüksək zirvələrində dalğalandığını vurğulayıb: "Əbəs deyil ki, bu gün müstəqil ölkəmizin bütün sahələrdəki inkişafı dünya birliyi tərəfindən tanınır və alqışlanır. Bu baxımdan, nüfuzlu beynəlxalq siyasi mərkəzlərdə müqəddəs bayrağımız qürurla dalğalanır".

YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov isə çıxışında bildirib ki, 1991-ci il oktyabrın 18-də respublikanın qanunvericilik orqanı olan parlament Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etdi və bununla da, respublikamızın müstəqilliyi bərpa olundu. "Həmin vaxtdan bəri xalqımız azad yaşayır, öz milli dövlətini möhkəmlədərək inkişaf etdirir. Qısa müddətdə müstəqil Azərbaycan siyasi, sosial-iqtisadi, mədəni sahələrdə böyük nailiyyətlər qazanmışdır. Respublikamızda dövlət müstəqilliyinin bütün atributları bərqərar edilmişdir. Dövlət gerbi, himn, üçrəngli bayraq müstəqil dövlətimizin rəmzləridir" deyə qeyd edən rayon təşkilatının sədri, həmçinin, bir sıra tarixi aspektlərdən çıxış edərək xatırladıb ki, ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının iclasında üçrəngli bayrağımızın dövlət rəmzi kimi qəbul edilməsi barədə qərar qəbul edilmişdi: "Müstəqillik əldə etdikdən sonra üçrəngli bayrağımız, ilk dəfə olaraq, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək, onu Dövlət Bayrağı elan edib. 2009-cu il noyabr ayının 18-də isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, "9 noyabr - Bayraq Günü" elan olunub. Dövlət rəmzi olmaqla yanaşı, üçrəngli bayrağımız and yerimiz, qürurumuzdur. Dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı fəxrlə üçrəngli bayrağımızı başı üzərində dalğalandırır".

Çıxışının sonunda YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov partiyanın ictimai-siyasi həyatında fəal iştirakına görə, YAP Pirallahı rayon təşkilatının bir qrup üzvünü Fəxri Fərmanla təltif edib.

Tədbir tanınmış müğənni Rüfət Axundov və digər incəsənət nümayəndələrinin iştirakı ilə konsert proqramı ilə davam etdirilib.

**Rövşən NURƏDDİNOĞLU**

# "Qondarma rejim üzdəniraqların ümidinə qalıb"

***"Təəssüf hissi ilə qeyd etməliyəm ki, son zamanlar Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz səfərlər həyata keçirilir və bununla da beynəlxalq hüququn norma və prinsipləri, eləcə də Azərbaycanın qanunları kobud şəkildə pozulur.***

Belçika parlament üzvlərinin Azərbaycan torpaqlarına qanunsuz səfəri Azərbaycan-Belçika münasibətlərinə inkişafına mənfi təsir göstərə bilər. Xüsusilə də, bu səfərin üzdəniraqlar tərəfindən reallaşdırılması qondarma rejimin nə qədər biabırçı bir vəziyyətdə olduğunu göstərir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Ehtiram Aşırlı deyib.

O bildirib ki, separatçı rejim bu səfərləri təşkil etməklə özünü "müstəqil ölkə" kimi tanıtmağa cəhd etsə də, buna nail ola bilməyəcək: "Xatırlayırsınızsa avqust ayında "internet qumarbazı" Den Blizerian işğal altında olan Azərbaycan torpağına səfər etmişdi. Separatçı rejim bu hərəkəti ilə daxili ictimaiyyətinə hər şeyin müsbətə doğru dəyişdiyini göstərməyə çalışsa da, istəyinə nail ola bilmədi. Qondarma rejim özünü "porno ulduzu", internet qumarbazı və digərlərinin dəstəyi ilə dünya arenasında tanınmağa çalışırsa, onda bu rejimdən hər şey gözləmək olar. İndi də üzdəniraqların dəstəyi ilə özlərini Avropa dəyərlərinə sadiq biri kimi göstərmək arzusundadırlar. Lakin bir şeyi unudurlar ki, Avropa dəyərləri işğalçılıq siyasəti üzərində qurulmayıb. Həmçinin onlar üzdəniraqların səfərlərini təşkil etməklə maliyyə dəstəyi əldə etməyi planlaşdırırlar. Bir sözlə, separatçı rejim homoseksuallara möhtac vəziyyətdədir".



E.Aşırlı qeyd edib ki, Avropada nüfuzu olmayan deputatın Qarabağa səfərinin ermənilər tərəfindən fəxarətlə təqdim edilməsi, separatçıların və erməni lobbisinin üzdəniraqlarla əməkdaşlığının və onların əsl kimliklərinin növbəti sübutudur: "Fikrimcə, yaxın zamanda homoseksuallığın qondarma rejimdə geniş yayılmasına müşahidə edəcəyik. Hətta bu səfər çərçivəsində maliyyə dəstəyinin təmin olunması qarşılığında qondarma rejimdən belə bir şərt irəli sürülə bilər. Xüsusilə, işğal olunmuş ərazilərimizdə xidmət göstərən erməni əsgərlərin arasında homoseksuallığın geniş yayıldığı bir vaxtda. Bundan əlavə, Ermənistanın LGBT icmasına 30 min avro göndərdiyi barədə yazılar çıxmaqdadır. Bu yaxınlarda Material Henrix Bell Fondunun Cənubi Qafqaz ofisi tərəfindən həyata keçirilən və Aİ tərəfindən maliyyələşdirilən "Ermənistan və Gürcüstanda LGBT nümayəndələri üçün həmrəylik şəbəkəsi" layihəsi çərçivəsində "Zorakılıqsız cəmiyyət" ictimai təşkilatının köməyi ilə "Ermənistanda eynicinsli cütlüyün xoşbəxt, amma çoxları üçün anlaşılmaz hekayəsi" adlı yeni bir yazı yayımlanıb. Bu yazıda Romik Danial və Narek adlı iki eyni həmcinsin bir-birinə qovuşmasından, bunun timsalında sevgilərindən bəhs olunur. Son olaraq, bu gün Romik və Narek uşaq arzusundadır, Romikin sözlərinə görə bu, qələbə rəmzi olacaq. Xüsusilə qeyd etmək istəyirəm ki, Nikol Paşinyan jurnalist kimi fəaliyyət göstərdiyi illər ərzində LGTB tərəfdaşı kimi çıxış edib. Bu gedişatla Ermənistan "gey"lər ölkəsinə çevrilə bilər. Görünür, bu işə ilk növbədə qondarma rejim başlayıb".

**Nailə Məhərrəmova**

# Beynəlxalq hüququn tələblərini işğalçının icra etməsi üçün mexanizm hazırlanmalıdır

***Əsrin dörddə birindən çox müddətdir ki, Azərbaycan torpaqları erməni işğalçıları tərəfindən zəbt edilib və əfsuslar olsun ki, hələ də həmin torpaqlar işğal altındadır. Bu torpaqların geri qaytarılmasına qoyulan tələblərə, beynəlxalq qurumların irəli sürdüyü tələblərə, qərar və qətnamələrə hələ də Ermənistan tərəfi məhəl qoymur və bu saymazlıq, nədənsə, hətta öz layiqli cavabını da ala bilmir.***

İndi erməni işğalçıları tərəfindən zəbt edilən Dağlıq Qarabağın tarixi torpaqlarımız olduğu təkcə Azərbaycan cəmiyyətinə deyil, bütün dünya ictimaiyyətinə bəllidir. İşğalçılar tarixi abidələri, memarlıq abidəsi sayılan yaşayış binalarını, məbədgahları, məscidləri dağıtmaqla, bu həqiqəti örtbasdır edə bilməzlər və Qarabağın Azərbaycana məxsus olmasını inkar etmək mümkün deyil. Doğrudur, daim "böyük Ermənistan" xülyası ilə qonşu dövlətlərin, xalqların ərazilərinə tamah salmaqda ermənilərin tayı-bərabəri yoxdur və özününküləşdirmək niyyəti ilə əldən-ayaqdan getdikləri də göz qabağındadır. Göz qabağındadır ki, məhz Dağlıq Qarabağın Ermənistan torpaqları kimi təbliğ edilməsi üçün Qərb qarşısında min bir oyundan çıxırlar. Hətta erməni lobbisinin müxtəlif qurumlara və dövlətlərə təsirini də inkar etmək olaz. Son Frankofoniya kimi, Fransız Dillilərin Sammitinin heç bir aidiyyatı olmadan, əsassız şəkildə Ermənistanda keçirilməsinə nail olan erməni lobbisi, yeri gəldikdə, müxtəlif təsir üsullarından istifadə etməyə çalışır.

Təbii ki, onların əsassız iddialarını əsaslandırmaq məqsədi, niyyəti ilə özlərinə həmfikir axtarışı da başa düşüləndir. Amma erməni lobbisi nə qədər çalışsa da, erməni təbliğatı nə qədər sürətlə işləsə də, Qarabağın Azərbaycana məxsus olması həqiqəti dəyişilməz olaraq qalır. Bir milyondan artıq qaçqın və məcburi köçkünün Dağlıq Qarabağ ərazisindən didərgin salınması həqiqətlərinə nə lobbiçilik kölgə sala bilməz, nə də ötən əsrin sonlarında həmin ərazilərdə törədilən soyqırımı, etnik təmizləmə siyasətini, işğal faktını erməni təbliğatı ört-basdır edə bilməz. Təkcə erməni işğalçılarının dağıtdıqları abidələr deyil, musiqilər, sənətkarlıq nümunələri, toponimlər də Qarabağın Azərbaycana məxsus olduğunu təsdiq edir.

## Bəyanatlar, qərarlar, qətnamələr hələ heç də münaqişənin həlli demək deyil və beynəlxalq qurumların bu sahədə nailiyyətlərinə şahid deyilik

İndi bütün dünya, hətta guya ki, Ermənistan da münaqişənin həllində canfəşanlıq göstərir. Hərçənd ki, bunu nə Ermənistanın apardığı siyasətdə görmək olur, nə də beynəlxalq qurumların bu sahədə nailiyyətlərinə şahid deyilik. Bəyanatlar, qərarlar və qətnamələr hələ heç də münaqişənin həlli demək deyil. Çünki bu qərar və qətnamələr yalnız kağız üzərində qalır, Ermənistan tərəfi bütün bunlara məhəl qoymur, beynəlxalq qurumlar isə. bu sayqısızlığa görə işğalçılara sanksiya tətbiq etmir. Nəticədə, münaqişənin həlli illər boyu uzanır, Dağlıq Qarabağla bağlı problem öz həllini tapmır. Amma ölkə Prezidenti İlham Əliyevin də VI Bakı Beynəlxalq Humanitar Forumunda dediyi kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının yeganə variantı Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdır və bunun üçün Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən çıxarılmalı və Azərbaycan vətəndaşları öz torpaqlarına geri dönməlidirlər.

## Qəbul olunan qərarlara etinasızlığına görə Ermənistana nə sanksiyalar tətbiq olunub, nə də beynəlxalq təşkilatların elə bir sanksiya mexanizmi yoxdur

Maraqlıdır, BMT kimi beynəlxalq təşkilatın Azərbaycanın xeyrinə qəbul etdiyi qərar və qətnamələri olduğu halda, yəni işğalçıların torpaqlarımızı qeyd-şərtsiz boşaltmalı olduqları halda, əlavə hansı danışıqlardan söhbət gedə bilər? Niyə bu vaxta qədər işğalçılar tərəfindən torpaqlar boşaldılmayıb və bu qərarların və qətnamələrin fonunda daha hansı danışıqlardan, hansı razılaşmalardan söhbət gedə bilər? BMT-nin sözügedən qərar və qətnamələrindən sonra, Ermənistan daha hansı instansiyada qərarı eşitmək fikrindədir və ümumiyyətlə, bu beynəlxalq təşklatın qərarlarına məhəl qoymayan bir işğalçı ölkə hansısa görüşdə qəbul olunmuş qərarlara məhəl qoyacağı inandırıcı səslənirmi? Belə olan halda, Ermənistan rəhbərliyinin hansısa görüşlərə, danışıqlara cəlb olunmasının nə kimi effekti ola bilər və bunun nəticəsinə ümid etməyə dəyərmi? Əlbəttə ki, yox. Çünki Ermənistana bu vaxta kimi qəbul olunan qərarlara əməl etmədiyinə görə nə sanksiyalar tətbiq olunub, nə də beynəlxalq təşkilatların elə bir sanksiya mexanizmi yoxdur. Əgər işğalçı dövlət qəbul olunmuş qərarların icra edilməməsi səbəbindən, hər hansı sanksiya və cəza tədbiri ilə qarşılaşmayacağına əmin olduqca, bundan sonra da hər hansı qərara etinasızlıq etməkdə davam edəcək. Əks-təqdirdə, yeni qərarlara göstərəcəyi etinasızlıq müqabilində sanksiya və cəza tədbirlərinin tətbiq olunacağını qəbul edərsə, bu zaman, sözsüz ki, həmin qərar və qətnamələrin icra edilməsinə maraqlı, daha doğrusu, məcbur olar. Amma təəssüf ki, nə sanksiya, nə də cəza tədbirlərinin tətbiq olunması üçün belə bir mexanizm mövcud deyil. Ona görə də, beynəlxalq təşkilatlar qəbul etdikləri qərar və qətnamələrinin icrasının reallaşdırılması, beynəlxalq hüququn tələblərini işğalçının icra etməsi üçün, ilk növbədə, sanksiya və cəza tədbirlərini müəyyən edən mexanizm hazırlamalıdırlar. Ancaq bu qərarlar gərək kağız üzərində qalmasın. Əks-halda, nə BMT qərar və qətnamələrinin, nə də digər instansiyaların qəbul etdikləri qərarlarının icrasını reallaşdırmaq mümkün olmayacaq. Təbii ki, nəticədə, nüfuzlu beynəlxalq təşkilatların qərarları öz mahiyyətini və çəkisini itirəcək ki, sonda bu, həmin təşkilatların özlərinin də nüfuzuna xələl gəlməsi və imicinə zərbə deməkdir. Məhz buna görə də, qəbul edilmiş qərarların icrasının reallaşması üçün, işğalçıların beynəlxalq hüququn tələblərinə riayət etməsini təmin etmək üçün mexanizm hazırlanmalıdır.

***İnam HACIYEV***



## "Paşinyan hakimiyyəti ələ almaq üçün bütün vasitələrdən istifadə edir"

"Mən düşünmürəm ki, Paşinyan hansısa addım atanda onu bilməyərəkdən atır. O hər şeyi bilir və populist siyasətçi olduğu üçün kütləyə çalışır". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib. Politoloq söyləyib ki, Paşinyanı kütlə seçdiyi və ona bu postu küçələrin hay-küyü qazandırdığı üçün indi o, xüsusilə də parlament seçkiləri ərəfəsində çoxlu ziddiyyətli bəyanatlar səsləndirir və bunu davam etdirəcək. F.Sadıqov hesab edir ki, Paşinyan yalnız parlament seçkilərindən sonra Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dəqiq mövqeyini ortaya qoyacaq: "Hesab edirəm ki, o, seçkidən sonra problemin həlli istiqamətində düşünülmüş ifadələr ortaya qoyacaq".



Hazırda Paşinyanın hakimiyyəti ələ almaq üçün bütün vasitələrdən istifadə etdiyini dilə gətirən politoloq vurğulayıb ki, bütün vasitələrə əl atır: "O gah danışıqlara separatçı rejimin cəlb edilməsini, gah danışıqların aparılmadığını, gah da ölkəmizin başçısı ilə görüşdüyünü və müsbət söhbətin baş tutduğunu deyir. Təbii ki, bütün bunlar bir-birinə ziddiyyət təşkil edir. Amma söylədiyim kimi bütün bunların arxasında hakimiyyətə gəlmək məqsədi dayanır". F. Sadıqov qeyd edib ki, lakin Paşinyan bilməlidir ki, danışıqlara getmək Ermənistan üçün daha maraqlı olmalıdır, nəinki Azərbaycana: "Çünki, biz artıq gücümüzü nümayiş etdirmişik və niyyətimizdən də heç zaman imtina etməyəcəyik. Azərbaycan öz mövqeyini ortaya qoyaraq dəfələrlə bəyan edib ki, biz sülh tərəfdarıyıq amma lazım olduğu təqdirdə gücümüzü nümayiş etdirməyə hər zaman hazırıq".

## "Münaqişənin həllində müəyyən qədər dəyişiklik olacağı gözlənilendir"

"ATƏT-in Minsk qrupunun missiyası sülh yolu ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək və bu prosesə töhfə verməkdir. Lakin mən onların hazırkı fəaliyyəti ilə yaxın müddətdə münaqişənin həlli istiqamətində müsbət dəyişikliklərin olacağını gözləmirəm". Bu fikirləri SİA-ya Milli Məclisin deputatı Azər Badamov həmsədrlərin regiona səfərinə münasibətini bildirərkən deyib.



Deputat bildirib ki, həmsədrlərin budəfəki səfəri də onların vəziyyətlə yenidən tanış olması və şablon bəyanatla yekunlaşacaq. Onun sözlərinə görə, həmsədrlərin problemin həlli istiqamətində müsbət dəyişiklik edəcək, yeniliklər gətirəcəyinə inanmaq çox çətindir: " Əgər onlar belə bir addım atmaq istəsəydilər, indiyədək atar və münaqişənin həlli istiqamətində fəaliyyət ortaya qoya bilərdilər. Amma çox təəssüf ki, 1993-cü ildən problemin həllinə vasitəçilik edən Minsk qrupu ötən 25 il müddətində bu istiqamətdə heç bir müsbət fəaliyyət ortaya qoya bilməyib". Son dövrlərdə ABŞ-ın problemin həlli istiqamətində Azərbaycanın maraqlarına uyğun şəkildə mövqe sərgiləməsinə toxunan A.Badamov qeyd edib ki, bu gün Azərbaycanın dünyada beynəlxalq mövqeləri möhkəmlənir, ölkəmiz nəinki ABŞ, Avropa və ümumilikdə bütün dünya üçün önəmli ölkəyə çevrilir: "Bu baxımdan Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında ABŞ kimi aparıcı bir dövlətin də mövqeyi dəyişilir ki, bu da nəticə etibarı ilə məsələnin həllinə təsir edə bilər. Biz bilirik ki, DQ-ın həlli təkcə ABŞ-ın deyil, digər dövlətlərin də burada təsir gücü var. Tezliklə nəyəsə nail olacağını düşünməsəm də, prosesdə müəyyən qədər dəyişiklik olacağı gözlənilendir".

# Qrantlar əldən getdi...

*Və ya Xədicə İsmayılın Avropaya "nifrəti"nin görünən tərəfləri*

***Gah "araşdırmaçı jurnalist", gah "hüquq müdafiəçisi", gah da QHT rəhbəri kimi siyasi gündəmdə qalmağa çalışan Xədicə İsmayılın "Amerikanın Səsi"nə bu dəfə Avropa siyasi dairələrini ittiham edən açıqlamalarla çıxış etməsini təsadüfi hesab etmək olmaz. Çünki vaxtilə "çörəyini", məhz bu qitənin bəlli siyasi dairələrindən yeyən X.İsmayılın birdən-birə durub "yediyi qazana tüpürməsi" elə-belə, sıradan bir məsələ deyil...***

### Əgər sabah digər "hüquq müdafiəçiləri" də anti-Avropa xarakterli səs-küy qaldırsalar, bundan kimsə təəccüb etməməlidir

Məsələ isə ondadır ki, uzun illər Azərbaycan hakimiyyətinə qarşı müxtəlif səpkili ittihamlar səsləndirən müəyyən Avropa təşkilatları, avropalı ictimai-siyasi dairə təmsilçiləri, əslində, bu kimi addımlarının doğru olmadığını anlamağa başlayıblar. Ölkəmizdə demokratiyanın, söz və ifadə azadlığının, siyasi azadlıqların mövcudluğunun reallığa dayandığını dərk edən qoca qitənin siyasi dairələri uzun illərdir "siyasi məhbus" kimi məsələlərdə özlərini Azərbaycanın müxalifətyönlü "hüquq müdafiəçiləri", "jurnalistləri" və s. qismində təqdim edənlərin onlardan, sadəcə, qrantlar qoparmaq üçün istifadə etdiklərini, gec də olsa, anladılar. Bu baxımdan, indi X.İsmayıl əl-ayağa düşərək, dərhal Sevinc Osmanqızı ilə əlaqə qurub və Avropanın əleyhinə çıxış edib. Əgər sabah X.İsmayıl kimi, Avropanın müxtəlif ölkələrində özlərini "siyasi mühacir" kimi sırıyan digər "hüquq müdafiəçiləri" də anti-Avropa xarakterli səs-küy qaldırsalar, bundan kimsə təəccüb etməməlidir. Misal üçün, əgər L.Yunus, E.Hüseynov kimiləri də Avropanın müxtəlif siyasi dairələrinə qarşı çıxışlar edə bilərlər.



### Sevinc Osmanqızının Xədicə İsmayıla tribuna verməsi ona baha başa gələ bilər

Onu da qeyd edə bilərik ki, avropadakıların buna cürətləri çatmaya da bilər. Çünki X.İsmayıldan fərqli olaraq, onların qrantları ilə yanaşı, "siyasi mühacirlikləri" də əldən çıxa bilər. Hər halda, unutmaq lazım deyil ki, Avropa tərəfinin siyasiləri bu cür məsələlərdə soyuq olurlar və kimsəyə güzəştə getmirlər. Ona görə də, X.İsmayıl heç də L.Yunusdan və digərlərindən özünə dəstək axtarmamalıdır. Düzdür, S.Osmanqızı ona bu şəraiti yaradıb, tribuna verib və s. Ancaq biz, bir müddət sonra, onun da Amerikadakı rıçaqlarının necə zəifləyəcəyinin şahidlərinə çevriləcəyik. Yəni onun bu addımı Osmanqızına baha başa gələ bilər. Çünki hazırda ABŞ-ın da müəyyən nüfuzu siyasi dairələri Azərbaycanla isti münasibətlərini inkişaf etdirmək niyyətlərini gizlətmirlər.

Beləliklə, fakt budur ki, artıq mitinqlər keçirib süni ajiotajlar vasitəsilə qrant qazanmaq şanslarını tükətmiş bu kimi siyasi dəllalların son ümidləri də puça çıxmaq üzrədir. AŞPA, Avropa Parlamenti və başqa təşkilatların Azərbaycana münasibətdə siyasi baxışlarının dəyişməsi də, məhz belə nəticə hasil etməyə zəmin yaratmaqdadır.

***Rövşən RƏSULOV***

# AzerTelecom şirkətinin rəhbər şəxsləri Global İnfluencer Day tədbirinin spikeri və moderatoru olub

***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi AzerTelecom şirkətinin rəhbər şəxsləri 26-29 oktyabr tarixlərində Bakıda "İnnovasiya Həftəsi" çərçivəsindəHeydər Əliyev Mərkəzində keçirilmiş "Global İnfluencer Day" təbirində spiker və ekspert-moderator qismində iştiraketməkdən məmnunluğunu bildirib.***




Belə ki, tədbirin rəsmi hissəsinin spikeri AzerTelecom şirkətinin Korporativ Ünsiyyət üzrə rəhbəri Ceyhun Əli olub.Tədbir çərçivəsində Blokçeyn texnologiyaları mövzusunda təşkil olunmuş panel müzakirəsiAzerTelecom şirkətinin Kommersiya məsələləri üzrə baş direktoru, Blokçeyn sahəsində mütəxəssisSamir Nuriyev tərəfindən aparılıb və bu texnologiya haqqında ətraflı məlumat verilib. Samir Nuriyev Blokçeyn texnologiyasının iqtisadiyyatın müxtəlif sahələrdə istifadəsi, texnologiyanın üstünlükləri, Azərbaycanda bank sferasında Blokçeyndən istifadə barədə danışıb. Panel müzakirələrində iştirak edən qonaqlar - respublikamızda müxtəlif aparıcı bankların rəhbərləri öz növbələrində Blokçeynin ölkəmizdə tətbiqi ilə bağlı ətraflı məlumat veriblər, müxtəlif təkliflər səsləndiriblər.

"Global İnfluencer Day" tədbiri Google, Facebook, Oculus, Gezimania, Vispera, Vogue, Booking.com, Joi və digər dünya miqyasında tanınmış şirkətlərin nümayəndələrini, influencer, biznes və brend sahiblərini Bakıda bir araya toplayıb.Tanınmş spikerlər influencer marketinq, data marketinq, elektron kommersiya və Blokçeyn texnologiyası və digərsahələr barədə faydalı fikir mübadiləsi aparıblar. Tədbirdə həmçinin süni intellekt (AI) əsasında hazırlanmış humanoid robot Sofia da çıxış edib.

Qeyd edək ki, "Global İnfluencer Day" tədbiri "Keepface DMCC" və "FA International Trade Events" tərəfindən təşkil olunub.

AzerTelecom Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. Şirkət internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), VoİP xidməti, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

## Bu il 100-dən çox jurnalist öldürülüb




"2018-ci ildə 36 ölkədə 100-dən çox jurnalist və KİV nümayəndəsi öldürülüb. SİA-nın xəbərinə görə, bu barədə "Press Emblem Campaign" adlı qeyri hökumət təşkilatı tərəfindən açıqlanıb. "Cari ilin 10 ayı ərzində öldürülən jurnalistlərin sayı ötən ilin dövrü ilə müqayisədə çox olub. Belə ki, yanvar ayından etibarən 36 ölkədə 106 jurnalist və mətbuat işçisi öldürülüb", deyə açıqlayan təşkilatın məlumatında bildirilir ki, 2017-ci ilin eyni dövründə bu rəqəm 99 olub. Bu il Əfqanıstan (17), Meksika (15) və Yəmən (8) jurnalistlərin öldürüldüyü ölkələr sırasında ilk üçlükdə yer alıblar.

# Daşnak ruhlu Vətən xaini

*"Siyasi məhbus" alverçisi Leyla Yunus satılıb və satmaqda davam edir*

***Həyasızlığı ilə özünü gündəmdə saxlayan, Ermənistanın xüsusi xidmət orqanları ilə əməkdaşlığı sübuta yetirilərək həbs olunan, Azərbaycan dövlətinin humanistlik göstərərək azadlığa buraxdığı "siyasi məhbus" alverçisi Leyla və Arif Yunusların bu günlərdə Azərbaycana qarşı apardıqları qarayaxma kampaniyasının aktiv iştirakçılarından olan "Amnestye İnternational"ın "siyasi məhbus"la bağlı qərəzli çağırışına səs veriblər. Yenə də L.Yunus satqın, cinayətkar olmaqla yanaşı, erməni xislətli olduğunu nümayiş etdirib. Kim nə deyirsə-desin, bir qadın, bir azərbaycanlı kimi belə vətən xaininin, satqının bu ölkəyə ayaq basmasına imkan verilməməlidir. Əslində, L.Yunusun kim olduğunu, hansı əməllərə sahiblik və hansı dairələrə xidmət etdiyini xatırlatmağa ehtiyac yoxdur.***



Bu, o L.Yunusdur ki, müxtəlif vaxtlarda başqa anti-Azərbaycan layihələrinə də imza atıb. Məsələn, bir müddət öncə, o, ermənilərlə iş birliyinə imza atıb. Vaxtilə Azərbaycanın Müdafiə Nazirliyinin Analitik İnformasiya Şöbəsinə rəhbərlik etmiş bu xanımı həmin illərdə müdafiə naziri Rəhim Qazıyevin "sağ əli" hesab olunurdu. Həmin illərdə Azərbaycanın başına açılan oyunlar, R.Qazıyevin Qraçovla anlaşması, sonradan Sürət Hüseynovun qiyamına dəstək verməsi heç kimin yadından çıxmayıb. Sonrakı dövrlərdə siyasi fəaliyyətə cəhd edən L.Yunus bundan bir şey çıxmayacağını görüb özünü "hüquq müdafiəçisi" kimi sınamağa qərar verdi. Azərbaycanda "siyasi məhbus" məsələsinin şişirdilməsi, hakimiyyətə qarşı təzyiq rıçağına çevrilməsi də onun "xidmətləri" sırasındadır. L.Yunusun hazırladığı "siyasi məhbus" siyahıları bu gün də Azərbaycana təzyiq üçün əllərdə gəzir. Bu günlərdə, o, Rusiyanın "Nastoyaşee Vremya" telekanalına müsahibəsi zamanı Azərbaycanda "gördüyü işlər" və "layihələr" barədə sərsəm fikirləri, məhz Azərbaycana, Azərbaycan dövlətinə qarşı nifrətindən irəli gəlir. Yediyin o çörək, içdiyin o su, aldığın hava sənə haram olsun, erməniyə nökərçilik edən qansız, vicdansız!.. Çünki Azərbaycan xalqına yuxarıdan aşağı baxan, bu dildə yalnız söyüş söyən, şərəfini, ləyaqətini maddiyyətə satan, ermənilərlə iş birliyini gizlətməyən L.Yunusun Vətənə xəyanət əməlləri ölkəmizdən kənarda da artıq tənqid olunur. Bu, o L.Yunusdur ki, Yunus-Barseqyanın milli mənsubiyyətini bildirən pasportunda "azərbaycanlı" yazılsa da, bu erməni gəlini təpədən-dırnağadək daşnak ruhuna xas Vətən xaini olduğunu sübut edən dəlillərdən yayınmağa çalışsa da, fakt faktlığında qalır. Bu, həqtqəğən də, belədir. Qrant əldə etmək üçün indi "siyasi məhbus", həqiqətən də, bir növ nəfəslik borusudur. Ona görə də, son günlər dağıdıcı düşərgədə "siyasi məhbus" məsələsi ətrafında baş verənləri tamamilə təbii hesab etmək olar. Bir məqamı da deyək ki, "siyasi məhbus" alverçiləri heç də hansısa məhkumun nə hüquqlarını müdafiə etmək istəyində olmadığını zərrə qədər də maraqlandırmır, təki qrantdara nail olsunlar.

### Səidə Qocamanlı: "Leyla Yunus öz marağına uyğun siyahı tərtib edir"

İnsan Hüquqları üzrə Birgə İşçi Qrupunun üzvü, hüquq müdafiəçisi Səidə Qocamanlı bildirib ki, "siyasi məhbus" alverçiləri öz maraqlarına uyğun siyahılar tərtib edirlər, beynəlxalq təşkilatlara işləyirlər: "Bu gün düşünülməmiş geniş siyahılar ortaya çıxır. Bu qədər də həyasıhlıq olmaz, satqınlıq olmaz. Deyilənlərin hamısı L.Yunusda var. Olmasaydı, xaricdə oturub, ən geniş siyahını tərtib etməzdi. Leyla kimilərin mənliyi, insanlığı ancaq qrantlarla ölçülür. Ona görə də, bu adamlar öz maraqlarına uyğun siyahılar tərtib edirlər, beynəlxalq təşkilatlara işləyirlər. Bax, həyasızlığın 100 faizi buna deyərlər".

***Rəfiqə HÜSEYNOVA***

# İnsan Hüquqları Müvəkkilinin funksiya və vəzifələri

***Təhlillər göstərir ki, Ombudsman Təsisatının milli modeli yaradılarkən, onun spesifikasını özündə əks etdirən adın seçilməsi problemi ortaya çıxır və bu zaman metodoloji əsas kimi Ombudsman Təsisatının müxtəlif əlamətləri götürülür, A.Həsənli həmin əlamətlər içərisindən nominativ məqsədlərlə istifadə olunan aşağıdakı əlamətləri əsas sayır: ombudsman səlahiyyətlərinin mənbəyi, aparıcı məqsəd, Ombudsman Təsisatının əsas funksiyası və ictimai rolu. Bu dörd əlamətə müvafiq surətdə müəllif dörd nominativ növ seçmişdir: nümayəndəli, məqsədli, funksional və rol nominasiyaları. O, "Ombudsman Təsisatının milli modellərinin təsnifatı" cədvəlinə seçdiyi bu növləri daxil etmişdir.***

A.Həsənlinin yanaşmasına görə, nümayəndəli nominasiya növünün tərkibinə daxil olan adlar özündə ombudsman tərəfindən hakimiyyətin hansı qolundan səlahiyyət alıbsa, onun da maraqlarını təmsil etmək faktı əks etdirilir. "Ombudsman" anlayışının mənbəyi "Otvid" sözündən götürülmüşdür ki, bu da orta əsrlər İsveç dilində qüvvə və ya nüfuzu, vasitəçi, yaxud digər şəxslərin nümayəndəsi olan şəxs mənasını verirdi.

Bir çox ölkələrdə ombudsman tipli milli təsisatların adları, məhz bu mənanı daşıyır. Buna misal olaraq, Skandinaviya ölkələrində, bir sıra digər Avropa ölkələrində, həmçinin, Amerika, Afrika və Asiyanın bir çox ölkələrində müvafiq adlı milli təsisatın ombudsmanın mövcud olduğunu göstərmək olar. Bəzi ölkələrdə nümayəndəli nominasiyanın digər tipik varianti istifadə edilmişdir. Məsələn, "İnsan Hüquqlarına dair Parlament Müvəkkili" (Böyük Britaniya, Şri-Lanka) adı ilə Ombudsman Təsisatının mövcudluğu onların mənşəyinin parlamentdən yaranmasına istinad edilir. Bir sıra ölkələrdə isə həmin mənşəli Ombudsman Təsisatlarının adında "parlament" sözü işlənilmir: Şikayətlər üzrə Müvəkkil (İsrail), Vətəndaşların Hüquqlarına dair Müvəkkil (Polşa), İnsan Hüquqlarına dair Müvəkkil (Rusiya) və s. Özbəkistan Respublikasında isə hər iki ifadədən istifadə edilir: "İnsan Hüquqlarına dair Ali Məclisin Müvəkkili" (Ombudsman).

Məqsədli nominasiya növünə misal olaraq "müdafiəçi" sözünün əsasını təşkil edən milli ombudsman təsisatlarını göstərmək olar: "Xalq Müdafiəçisi" (İspaniya, Kolumbiya, Gürcüstan), "Vətəndaş Müdafiəçisi" (İtaliya) və s. Ümumiyyətlə, "müdafiəçi" sözü Ombudsman Təsisatının milli modelinin vətəndaş cəmiyyətinin dəyərinə istiqamətlənməsini və ayrı-ayrı şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün yaradılmasını göstərir. Bu məqsəd digər variantda - "Xalqın Vəkili" (Ruminiya) variantında da əks olunmuşdur.

Ombudsmanın nəzarət funksiyası tədqiqat araşdırmaları vasitəsilə həyata keçirilir, bu da öz ifadəsini Milli Ombudsman Təsisatlarının adlarında tapmışdır.

Müasir cəmiyyətdə ombudsmanın əsas rolu dövlət orqanları və vətəndaşlar arasında hüquqi münasibətlər zəminində vasitəçilikdən ibarətdir. Məhz onun bu sosial rolu Fransada "Mediator" (vasitəçi), Seneqalda "Respublika Vasitəçisi" kimi milli ombudsmanların adlarında əks etdirilmişdir.

Azərbaycanda Ombudsman Təsisatının milli modelinin adı əksər ölkələrin nümunəsi əsasında "İnsan Hüquqları üzrə Müvəkkil" kimi müəyyən edilmişdir ki, bu da A.Həsənlinin yanaşması baxımından nümayəndəli nominasiya növünə aiddir. Onun fikrincə, Ombudsman Təsisatının prototipi islam aləmində, o cümlədən, Şərqdə mövcud olmuş, orta əsrlərdə Azərbaycanda da geniş yayılmış hüquqi mühtəsib təsisatıdır. Ərəb sözü olan "mühtəsib" istilahının müasirləşdirilmiş şəkildə Azərbaycan hüquq-müdafiə təsisatının adında tətbiq edilməsi barədə mütəxəssislər, o cümlədən, A.Həsənli tərəfindən söylənilən fikirlər Azərbaycan ombudsmanın adında öz ifadəsini tapmışdır: "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)". Göründüyü kimi, "mühtəsib" sözünün modernləşdirilmiş məna məzmununu təşkil edən "müvəkkil" sözü Azərbaycan dilinə fonetik uyğunlaşması ilə fərqlənir və onu ifadə etmək sıravi azərbaycanlıda hər hansı bir problem doğurmur. Digər tərəfdən isə, A.Həsənli tərəfindən səciyyələndirilən nümayəndəli nominasiya növünə aid olan ifadə kimi tətbiq edilmişdir. Bizim fikrimizcə, tədqiqatçılarla razılaşmaq olar ki, Milli Ombudsman Təsisatımızın qəbul edilmiş adı "müvəkkilin" hakimiyyət orqanlarının müstəqilliyini dolğun şəkildə əks etdirir və mühtəsib xidmətinin geniş xalq kütlələrinin üzünə daha açıq olması imicinə uyğun gəlir.

Müasir cəmiyyətdə demokratiyanın gerçəkləşməsi müxtəlif formalarda təzahür edir. Qloballaşan dünyada baş verən inteqrasiya prosesləri getdikcə demokratiyanın Qərb və Şərq modellərinin daha ümumi və bənzər şəkildə gerçəkləşməsinə gətirib çıxaracaqdır. Bunun bir təzahürü 2001-ci il yanvarın 25-də Avropa Şurasının üzvü olan Azərbaycan Respublikasının bir sıra Avropa Konvensiyalarına qoşulması və ölkədə onlardan irəli gələn öhdəliklərə müvafiq milli təsisatların yaradılmasıdır. Belə ki, Azərbaycan Respublikası 25 dekabr 2001-ci il tarixdə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" və "İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarların və ya cəzaların qarşısının alınması haqqında" Avropa Konvensiyalarına qoşularaq milli qanunvericiliyin beynəlxalq, Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini qəbul etmişdir. Bu baxımdan, qeyd etmək lazımdır ki, Azərbaycanda Ombudsman Təsisatının yaradılması da bunlardan biri olmuşdur.

"Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında", Azərbaycan Respublikasının Konstitusiya Qanunu 28 dekabr 2001-ci il tarixdə qəbul olunmuşdur. Həmin qanunda İnsan hüquqları üzrə Müvəkkilin fəaliyyətinin əsasları müəyyən edilərək qeyd edilir ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili vəzifəsi Azərbaycan Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq muqavilələrdə təsbit olunmuş Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün təsis edilir.

Qanuna görə müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir. Müvəkkilin səlahiyyətlərinə Azərbaycan Respublikası hakimlərinin fəaliyyətinin yoxlanılması aid deyil.

Qanun İnsan Hüquqları üzrə Müvəkkilin səlahiyyətlərinə bir sıra məsələlərlə bağlı təkliflərin verilməsini daxil edir:

- Əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi barədə Azərbaycan Respublikası Prezidentinə təkliflərin verilməsi;
- insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair Azərbaycan Respublikasının Milli Məclisinə təkliflərin verilməsi;
- amnistiya elan edilməsi barədə Milli Məclisə təklifin verilməsi.

Azərbaycan Respublikasında İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) seçilməsi bir sıra postsovet ölkələrindən fərqlənir. Belə ki, məsələn, qonşu Gürcüstanda həmin vəzifəyə ölkə prezidenti ilə yanaşı, parlament fraksiyaları və müstəqil deputat qrupları da namizəd irəli sürə bilirlər. Azərbaycan parlamentinin isə ombudsman postuna namizəd irəli sürmək hüququ yoxdur. Həmin vəzifəyə namizədləri Azərbaycan Respublikasının Prezidenti təqdim edir. Milli Məclis yalnız Prezident tərəfindən təqdim olunmuş üç namizəddən birini seçmək səlahiyyətinə malikdir. Əlbəttə, Milli Məclis Prezidentin təqdim etdiyi namizədlərin heç birinə səs verməyə bilər. Bu halda, həmin prosedura yenidən keçirilir, 15 gün müddətində Prezident digər üç namizədi Milli Məclisə təqdim edir. Təqdim olunan üç namizəd arasından müvəkkil 83 səs çoxluğu ilə (2/3) seçilir.



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Beləliklə, dünyanın müxtəlif ölkələrinin təcrübəsində vətəndaş və dövlət aparatı arasında qarşılıqlı münasibətləri tənzimləyən müxtəlif mexanizmlər, həmçinin, vətəndaşların hüquqlarının riayət olunmasına nəzarəti təmin edən orqanlar sistemi məlumdur. İnsanın hüquq və qanuni maraqlarının dövlət-idarəetmə orqanlarının özbaşınalıqlarından və məmurlar tərəfindən hakimiyyətdən sui-istifadə hallarından müdafiəsi mexanizmləri arasında Ombudsman Təsisati olduqca vacib yer tutur.

İnsanların məmurların davranışlarına qarşı çıxmaları, şikayət etmələri və bu şikayətlərin müstəqil nəzarət orqanı tərəfindən araşdırılması və s. problemlərə, demək olar ki, hər bir tarixi mərhələdə rast gəlinir. Belə şikayətin həlli üçün keçmişdə müxtəlif adlarla, lakin məqsədi və funksiyası eyni olan bir çox təşkilatlar təsis edilmişdir ki, onların da içində ən çox iz buraxan, müasir dövrədək öz aktuallığını itirməyən təşkilat, məhz ombudsman qurumu olmuşdur.

Artıq qeyd etdiyimiz kimi, ombudsman istilahı müxtəlif bürokratik qurumlar tərəfindən görülən işlər haqqında xalqın şikayətlərini dinləyən xüsusi bir büro və ya məmur mənasında işlənilir.

Qeyd etmək lazımdır ki, əsası böyük dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulan bu siyasət Onun layiqli siyasi varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Tədqiqatçı və ekspertlər də bunu təsdiq edərək, qeyd edirlər ki, ölkədə yaradılmış ictimai-siyasi sabitlik şəraitində İlham Əliyevin Prezidentliyi dövründə demokratiyanın inkişafı, o cümlədən, insan hüquq və azadlıqlarının təmin olunması yönümündə mühüm işlər görülmüşdür. Bunun bir istiqamətini də demokratik dəyərlərin mühüm tərkib hissəsi olan söz və fikir azadlığının təmin edilməsi təşkil etmişdir. Bütün bunlar isə respublikamızda demokratiyanın dinamik inkişafının göstəricisi kimi qiymətləndirilir.

Ölkəmizdə reallaşan demokratikləşmə şəraitində qeyd olunan və digər istiqamətlərdə həyata keçirilən dövlət siyasəti çərçivəsində insan hüquqlarının müdafiəsi və təmin edilməsinə dair milli mexanizmlərdən birini Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Ombudsman Təsisatı təşkil edir. Bu təsisatın demokratiya yolunu seçmiş Azərbaycan cəmiyyətində təşəkkülü məsələlərinin tədqiqinə dissertasiya işinin bu fəslinin növbəti hissəsi həsr olunmuşdur.

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***





## "Nar" AzTU-da tələbələr üçün mobil rabitə təlimi təşkil etdi

"Nar" özünün KSM strategiyası çərçivəsində Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Mobil operatorun AzTU-da tələbələr üçün "Mobil rabitənin əsasları" mövzusunda növbəti təlimi baş tutub. Təlim "Nar"-ın yerli mütəxəssislərindən ibarət peşəkar texniki heyəti tərəfindən keçirilib. Təlimə qatılan tələbələr və gənc mühəndislər mobil şəbəkənin fəaliyyəti, mobil internetin əsasları, 2G, 3G və 4G rabitə texnologiyaları, mövcud şəbəkələrin işləmə prinsipi və inkişafı haqqında nəzəri və təcrübi biliklər əldə ediblər. Tələbələrə telekommunikasiya ilə bağlı suallar verilib. Sualları düzgün cavablandıran tələbələr "Nar" tərəfindən xüsusi hədiyyələr qazanıblar. Təhsil və maarifləmənin inkişafına xüsusi önəm verən "Nar"-ın bu təşəbbüsü tələbələrin dərslərində daha uğurlu olmalarına və gələcək karyeralarında lazım olacaq məlumatlar əldə etmələrinə xidmət edir.

Xatırladaq ki, 2016-cı ildə Azərbaycan Texniki Universiteti ilə imzalanmış tərəfdaşlıq müqaviləsi çərçivəsində universitetdə "Nar" GSM laboratoriyası yaradılıb. Müasir telekommunikasiya avadanlığının quraşdırıldığı xüsusi laboratoriyada peşəkar texniki işçi heyəti tərəfindən tələbələr üçün təlim və seminarlar keçirilir. Tələbələr mobil rabitə üzrə müxtəlif nəzəri biliklər və təcrübə əldə etmək fürsəti qazanırlar. Proqram çərçivəsində praktiki biliklərini inkişaf etdirən bir qrup gənc ixtisaslı kadr kimi yetişmək üçün mobil operatorda ilk addımlarını atır. Universitetdəki laboratoriyanın təchizatı və tələbələr üçün nəzərdə tutulmuş təcrübə proqramı "Nar"-ın gənclər və təhsilə yönəlmiş KSM strategiyası çərçivəsində həyata keçirilir.

"Nar"ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.

## Arxeoloqlar Misir piramidalarının sirrini açıblar

Fransa Şərq Arxeologiya İnstitutunun və Liverpul Universitetinin birgə missiyası Misirdə qədim rampa aşkar edib. Alimlərin fikrincə, 4500 yaşı olması güman edilən bu rampanın köməyi ilə qədim misirlilər piramidaların tikintisi üçün çox böyük ölçülü daş blokları daşıyırmış.

AZƏRTAC Misir KİV-lərinə istinadla xəbər verir ki, əl-Minya əyalətinin ərazisində yerləşən qədim karxanada tapılmış qurğudan, arxeoloqların fikrincə, Böyük Xeops Piramidasının tikintisi üçün istifadə edilib. Bu qurğu iri daş bloklarının çıxarılması və daşınması üçün mükəmməl sistemdir.

Missiyanın rəhbərlərindən biri - Yannis Qurdon izah edib ki, qazıntı işləri zamanı belə qurğuların təsvirləri əvvəllər də tapılıb, lakin ilk dəfədir ki, arxeoloqlar yaxşı vəziyyətdə qalmış rampa aşkar ediblər. Onun sözlərinə görə, aşkar edilmiş təsvirlərin, qurğuların və yazıların öyrənilməsi bu nəticəyə gəlməyə əsas verir ki, bu sistem Gizadakı Böyük Piramidanın memarı firon Xeopsun hakimiyyəti dövrünə aiddir.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Məhərrəmova Cəmilə Ramil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


# səs

Son səhifə 2 noyabr


# Tərlan Əhmədov: "Rəqibi öz silahı ilə vurmaq lazımdır"

***"Bacardığımız qədər çalışdıq ki, müdafiədə səhvsiz oynayaq və rəqibi əks-hücumlarda tutaq. İlk hissədə istədiyimizi edə bilmədik. Amma fasilədən sonrakı epizodlarda qələbə də qazana bilərdik, məğlub da ola bilərdik. Qol buraxandan sonrakı mübarizə məni sevindirdi. İstək var idi. Qarşıda beş tur var. "Qarabağ"dan bir xal almışıq və ədalətli nəticə də heç-heçə idi. Bu heç-heçə bizə motivasiya verir, üç gündən sonrakı matça bizi daha aqressiv edir. Qarşıdakı beş görüşdə daha baxımlı oyun keçirmək və nəticə qazanmaq istəyirik". SİA-nın məlumatına görə, bunu "Keşlə"nin yeni baş məşqçisi Tərlan Əhmədov evdə "Qarabağ"la 1:1 heç-heçə etdikləri Topaz Premyer Liqasının 7-ci turundan təxirə salınmış görüşdən sonra mətbuat konfransında deyib.***



47 yaşlı mütəxəssis daha sonra jurnalistlərin suallarını cavablandırıb...

***- Növbəti turda "Neftçi" ilə qarşılaşacaqsınız. Sizin üçün ikiqat motivasiya var?***

- Həyat belədir, bir gün orda, bir gün burda. Mənim üçün önəmli olan tək "Neftçi" deyil. Bizi çempionatda 19 tur gözləyir. Təkcə "Neftçi"ni düşünsəm, o biri matçları unudaram. Həyatda hər şeyi unuduram. İntiqam hissi ilə yaşamaq insanı kiçildir. Olanlar keçmişdə, tarixdə qaldı. Sadəcə, qarşıdakı görüşə 3 xal üçün çıxacağıq.

***- Bunu uğurlu start saymaq olar?***

- 3 xal olsaydı, uğurlu start olardı. Heç-heçə də pis deyil. Hər qazanılan xal qızıl xala bərabərdir. Xüsusən də liderlərə qarşı. Mən 1-2 oyun üçün söz verib bura gəlməmişəm. Məşqçinin işi mövsümün sonunda ortaya çıxır. Bu gün də öz sistemimizi ortaya qoymağa çalışdıq. Uğurlu da saymaq olar, uğursuz da. Amma mən uğurlu sayıram.

***- Matçın sonlarında 4-lü müdafiəyə keçdiniz. Bu nə ilə bağlıdı?***

- Xeyr, sistemi dəyişmədik. Sadəcə, Azəri çıxardıb, Slaviki ora keçirdik. Fikrim var idi ki, hücumu gücləndirmək üçün 4-lü müdafiəyə keçim. Amma Azərin zədələnməsi buna gətirib çıxartdı.

***- Samir Məsimovun qırmızı vərəqə epizodunda narazılığınız kimə idi?***

- Samirin özünə. Hakim qərarını dəyişmir. Onunla mübahisəyə ehtiyac yoxdur. Dördüncü hakimə də bildirdim ki, bilərəkdən olmayan epizoddur. Artıq vərəqəni vermişdi, etiraza gərək yox idi.

***- Oyun planında çatışmayan cəhətlər nə idi?***

- Çox şey var. Hücumda yaradılan qol epizodlarının az olması məni narahat edir. Komanda topa çox sahib ola bilmir. Yerdəyişmələr, bir-birini sığortalamalar üreyimcə deyil. Bunlar bir günə yox, zamanla düzələr. Ən ciddi narahatlıq az qol epizodu yaratmağımız oldu.

***- Samirin qırmızı vərəqə alması sizə çətinlik yaratmayacaq?***

- Hər bir futbolçu önəmlidir. Amma bunu ciddi itki kimi qəbul etmək istəmirəm. Bu baş veribsə, ən yaxşı alternativdən istifadə edəcəyəm.

***- Açıq futbol oynayan "Qarabağ"dan xal aldınız. Qapalı futbol göstərən "Neftçi"yə qarşı necə olacaq?***

- Bunu indi açıqlaya bilmərəm. Çünki rəqibə bütün siqnalları verə bilmərəm. Rəqibi öz silahı ilə vurmaq lazımdır. Rəqibin bizə nə hazırladığını bilmirəm. Amma biz də analiz edib, meydana 3 xal üçün çıxacağıq. Düşünürəm ki, bugündən bir az da maraqlı oyun izləyəcəksiniz. Bu 1 xal da bizə əlavə motivasiya verəcək.

***- Cinah asmalarına çox üstünlük verirdiniz. Amma bunun 99 faizində top rəqib müdafiəçilərinə çatırdı. Vaqif Cavadovu meydana buraxmamağınızın səbəbi nə idi?***

- Mənə cinahda əzmkar, cinahı bağlayan futbolçu lazım idi. Çatışmayan cəhətimiz az qol vurmağımızdır. Futbolda 90 faiz qol cinah ötürməsindən vurulur. Bizdə də belə bir problem var. Keçmiş oyunları analiz etmişəm. Oyunun gedişində hiss edirdim ki, hansısa məqamda nəsə ola bilər. Vaqif topla oynamağı sevən futbolçudur. "Qarabağ"la görüşdə bu, bizim ziyanımıza ola bilərdi. Amma qarşıdakı matçlarda ona şans veriləcək.

***- Elnur Cəfərov haradadır?***

- Dünən komandaya qoşulmuşam. O, sabah əvəzedici heyətlə meydana çıxacaq. Yığmanın oyunları ilə əlaqədar fasilə yaranacaq. Həmin vaxt dəvət edib yoxlayacağıq.

***- Zaur Axundov qarşınıza konkret avrokubok hədəfi qoyubmu?***

- Ötən il də "Keşlə" avrokubokda iştirak edib, uduzub. Bütün komandalar bunu arzulayır. Mən də komandamın liderlər sırasında yer almasını istəyirəm. Zaur müəllimlə söhbətdə də bunu müzakirə etdik ki, hər şey mümkündür. O hədəfə çatmağa çalışacağıq. Hələ ki, çempionat oyunlarını fikirləşirik. Deyirlər ki, avrokuboka ən yaxın yol kubokdan keçir. Niyə də olmasın? Komandanın bu potensialı avrokuboka çıxmağa imkan verir.

***- Bu yaxınlarda bir söhbətdə demişdiniz ki, gözləyirəm, kiminsə quyruğu qapı arasında ilişsin. "Keşlə"nin ayağı qapı arasında ilişib?***

- Mən bu sözü heç vaxt deməmişəm (gülür). Sadəcə, "dincəlirəm" demişdim. Demişdim ki, kimin vəziyyəti ağır olacaq, yəqin ki, dəvət olunacaq. İki klub belə durumda idi. "Zirə"yə Samir Abasov yeni getmişdi. Heç "Keşlə"dən də gözləmirdim. Çünki baş məşqçi təzə gəlmişdi. Birdən-birə bu məsələ ortaya çıxdı.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500